# Book of Abstracts

of the International Symposium

# Azerbaijani Mugham Across Borders

**Joint Symposium**

**Co-organized by the ERC-UKRI funded “Maqam Beyond Nation”**

**(SOAS University of London) project,**

**Azerbaijan National Conservatory, and the**

**ICTMD Study Group on Maqam**

**29-30 April 2026**
**Azerbaijan National Conservatory**
**Baku, Azerbaijan**

# COMMITTEES

**Organizing Committee:**

*Polina Dessiatnitchenko*, Assistant Professor, Waseda University (Japan); Researcher at SOAS University of London (England)

*Rachel Harris*, Prof. Dr., SOAS University of London (England)

*Lala Huseynova*, Prof. Dr., Azerbaijan National Conservatory (Azerbaijan)

*Alexander Djumaev*, Prof. Dr., Institute of Cultural Research and Intangible Culture Heritage of the Ministry of Culture of the Republic of Uzbekistan (Uzbekistan)

# Venue

We are delighted to invite you to participate in a symposium organized by the ERC-UKRI funded "Maqam Beyond Nation" (SOAS University of London) project, Azerbaijan National Conservatory, and the ICTMD Study Group on Maqam. This symposium will be focused on both historical and current connections between Azerbaijani mugham and cognate maqam branches in the Middle East, Central Asia, and beyond. It is set to take place on April 29-30, 2026, at the Azerbaijan National Conservatory in Baku.

**Address:** Baku, Yasamal district, Alasgar Alekperov 7



# Guide for Participants at Symposium

Below are the guidelines for the Programme. Please read them carefully taking note of the allotted times, speakers, presenters, and chairs, for both in-person and online formats.

## Session Timing

The Symposium consists of plenary session, keynote speeches and panel sessions featuring two, three, or four individual or joint papers.

Plenary sessions: 30 minutes

Keynote speeches: 1 hour

Panel sessions: each paper is allotted 20 minutes for presentation, followed by 10 minutes for questions and discussion.

Some sessions may feature presenters whose contribution includes a short performance of up to 15 minutes; in such cases, the total time allocated to that presenter is 45 minutes.

## Role of Session Chairs

The Chair plays a crucial role in fostering intellectual discourse and ensuring the smooth operation of the session. Chairs should:

Briefly introduce themselves and welcome participants.

Remind presenters of their allotted time.

Announce each presenter's full name(s), affiliation(s), and paper title.

Encourage questions, discussion, and interaction with the audience following each presentation.

Ensure that the session adheres strictly to the schedule and finishes on time.

If a presenter is absent, the Chair must still adhere to the original schedule and wait until the allotted time for the next paper to begin.

### Programme of the Symposium

In the present era marked by globalization, transnational flows of finance and ideology, territorial conflicts and exclusions, we aim to investigate how creativity of musicians transcends borders and challenges ideas about separate maqam musical canons. The topics of affect and aesthetics that may unite maqam repertoires, as well as analysis of how specific modes and cycles are similar in musical terms are welcome. Moreover, questions of collaboration across geographical borders to develop Azerbaijani mugham and local instruments are of interest. Alternatively, we seek to discuss the uniqueness of Azerbaijani mugham among other modal repertoires in the vicinity.

Each session in the programme is assigned a unique identifier consisting of three components:

1. Roman numeral: indicates the day of the conference (I, II).
2. Capital letter: denotes the session or event.
3. Arabic numeral: indicates the sequence number of the session.

For example, the identifier "IIC3" refers to the third panel session on the second day of the symposium.

The session venue is indicated in square brackets following the session title. The name of the session Chair is listed after the session venue.

The Symposium is conducted in a hybrid format (in person and online). The working languages of the Symposium are English and Azerbaijani.

**INTERNATIONAL SYMPOSIUM "AZERBAIJANI MUGHAM ACROSS BORDERS"**
**AZERBAIJAN NATIONAL CONSERVATORY, 29-30 APRIL 2026**
**ABSTRACTS**

**"SƏRHƏDLƏRI AŞAN AZƏRBAYCAN MUĞAMI" BEYNƏLXALQ SİMPOZİUMU**
**AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI, 29-30 APREL 2026-CI İL**
**TEZİSLƏR**

**Keynote speech 1**

**Sanubar BAGHIROVA**
**(Azerbaijan National Academy of Sciences)**

## THE CONCEPT OF 'TA`SIR' IN MUGHAM STUDIES

The concept of "*ta`sir*", the emotional impact of music, is not new to maqam studies; it was developed in the works of Eastern medieval music theorists including the treatise "Adwar" by Safi al-Din al-Urmavi. The concept of "*ta`sir*" in their works, as well as in the treatises of latest authors, (for example, in the treatise 'Adwar' by an anonymous author of the 17th century) usually refers to the emotional impact of different musical modes on the listener. This issue is briefly touched upon also in Mir Mohsun Navvab's treatise "Vuzuhil argam" (1884) and is more clearly articulated in Uzeyir Hajibeyli's prominent theoretical work, from precisely the same perspective as the medieval treatises. Hajibeyli's often-quoted statement about the emotional impact of each of the seven main Azerbaijani modes provides only a general idea of their emotional nature, whereas the emotional states evoked by live mugham performance are largely unpredictable and do not always correspond to the generally accepted characteristics of these modes.

The concept of *ta`sir,* as the emotional impact of music, not modes, has not received systematic study in works on Azerbaijani mugham. It was first raised in my dissertation (1984) and further explored in my published work, "On the Ethical and Psychological Concept of Dastgah" (1989). In these works, the various emotional states conveyed in music and the logic of their development in dastgahs, leading to a cathartic artistic outcome, were revealed through an analysis of means of musical expression, through which these emotional states are expressed. The emotional impact of maqam music in the Arabic and Indo-Persian musical traditions has also been examined in various aspects also in studies by Marcus (1993), Racy (2003), Farraj and Sami (2019) and several other authors. The current paper focuses on the phenomenon of variability in the emotional impact of mugham, which determines its artistic function - aesthetic or ethical.

**Əsas məruzə 1**

**Sənubər BAĞIROVA**
**(Azərbaycan Milli Elmlər Akademiyası)**

## MUĞAMŞÜNASLIQDA "TƏSİR" ANLAYIŞI

Musiqinin emosional təsiri olan "təsir" anlayışı (konsepti) maqamşünaslıq üçün yeni deyil. Bu konsept hələ Orta əsr Şərq musiqi nəzəriyyəçilərinin, o cümlədən Səfiəddin Urməvinin "Kitabül-Ədvar" ("Dövrlər kitabı") əsərində öz əksini tapır. Həm həmin dövrün, həm də sonrakı müəlliflərin (məsələn, XVII əsrə aid anonim bir müəllifin "Ədvar"-"Dövrlər" traktatında) əsərlərində "təsir" anlayışı adətən müxtəlif musiqi məqamlarının dinləyiciyə göstərdiyi emosional təsirə aid edilir. Bu məsələyə Mir Möhsün Nəvvabın "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı" -1884) traktatında qısaca nəzər salınsa da, lakin Üzeyir Hacıbəylinin məşhur nəzəri əsərində ("Azərbaycan xalq musiqisinin əsasları") isə Orta əsr risalələri ilə eyni baxış bucağından daha aydın ifadə olunub. Ü.Hacıbəylinin 7 əsas Azərbaycan muğamının emosional təsiri haqqında tez-tez sitat gətirilən fikirləri onların xarakteri barədə yalnız ümumi məlumat verir. Ancaq, canlı muğam ifasının yaratdığı emosional vəziyyətlər çox vaxt gözlənilməz olur və bu məqamların ümumi qəbul edilmiş

xüsusiyyətləri ilə hər zaman üst-üstə düşmür.

Musiqinin (təkcə məqamların yox) emosional təsiri kimi başa düşülən "təsir" anlayışı Azərbaycan muğamına dair işlərdə sistemli şəkildə öyrənilməmişdir. Bu məsələyə ilk dəfə mənim dissertasiyamda (1984) toxunulmuş, daha sonra isə "Dastgahın etik və psixoloji konsepsiyası haqqında" (1989) adlı elmi əsərimdə daha dərindən araşdırılmışdır. Bu tədqiqatlarda musiqidə ötürülən müxtəlif duyğusal vəziyyətlər və dəstgahlarda bu vəziyyətlərin inkişaf məntiqi təhlil olunmuşdur. Həmçinin, musiqi ifadə vasitələri vasitəsilə bu duyğuların necə üzə çıxdığı və bədii nəticəyə (katarsisə) necə gətirib çıxardığı göstərilmişdir.

Ərəb və Hind-İran musiqi ənənələrində maqam musiqisinin emosional təsiri Markus (1993), Rasi (2003), Farraj və Sami (2019) və digər müəlliflərin araşdırmalarında müxtəlif tərəflərdən öyrənilmişdir. Bu məqalə isə muğamın emosional təsirindəki dəyişkənlik fenomeninə diqqət yetirir. Məhz bu dəyişkənlik muğamın bədii funksiyasını — yəni onun estetik və ya etik əhəmiyyətini müəyyən edir.

**Keynote speech 2**

**Jean DURING**
**(French National Centre for Scientific Research, CNRS)**

## COMPARATIVE PERSPECTIVE: DASTGÂH VS. MAQÂM, TAQÂSÎM VS. IMPROVISATION. SOME IRANIAN SPECIFICITIES

From a comparative perspective, this article examines the concept of *maqâm*, highlighting its profound historical instability: mode, melodic construction process, narrative sequence, or even canonical "rank" within a repertoire and category of cultural legitimation. In Iran, the term was widely used during four centuries, but disappeared from scholarly terminology at the end of the 18th century in favor of the *dastgâh* system, based on the serialization of *gushe*. In contemporary times, "*maqam*" has been reconfigured in Iran as a category for promoting regional traditions (Kurdish tanbur, bards of Khorasan), where it refers less to a mode than to a prominent place in a corpus, sometimes structured in suites. This re-semantization sheds light on the conceptual differences between Persian and Turkish-Ottoman practices: in the former, modal stability and paraphrasing of the model (*radif*) predominate, while in the latter (*taqsîm / bedâhe navâzi*) the art of itinerary is the principle of creativity. The talk concludes with the stylistic specificity of Persian music, linked to a repertoire of ornaments and micro-formulas rather than abstract modal structures.

**Əsas məruzə 2**

**Jan DÜRİNQ**
**(Fransa Milli Elmi Araşdırmalar Mərkəzi, CNRS)**

## MÜQAYİSƏLİ BAXIŞ: DƏSTGAH MAQAMA QARŞI, TƏQSİM İMPROVİZASİYAYA QARŞI. İRAN MUSİQİSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Məqalədə müqayisəli yanaşma (komperativ metod) vasitəsilə "maqam" anlayışı araşdırılmış və onun tarix boyu necə dəyişdiyi göstərilmişdir. "Maqam"- həm musiqi pərdəsi (lad), həm melodiyanın qurulma prosesi, həm müəyyən bir ardıcıllıq, həm də mədəni bir dəyər kimi başa düşülə bilər. İranda bu termin dörd əsr boyu geniş istifadə olunsa da, XVIII əsrin sonunda elmi terminologiyadan çıxmış və yerini "guşə"lərin ardıcıllığına əsaslanan "dəstgah" sisteminə vermişdir.

Müasir dövrdə isə "maqam" sözü İranda daha çox regional ənənələri (məsələn, kürd tənburu və ya Xorasan aşıqları) ifadə etmək üçün istifadə olunur. Burada maqam sadəcə bir lad deyil, bəzən silsilə şəklində düzülmüş musiqi külliyyatındakı əsas hissəni bildirir. Bu məna dəyişikliyi fars və türk-osmanlı musiqi təcrübələri arasındakı fərqləri də aydınlaşdırır: fars musiqisində əsas modelə (radifə) sadiqlik ön planda olduğu halda, türk-osmanlı musiqisində (təqsim) yaradıcılığın əsasını musiqi "səyahəti" sənəti təşkil edir. Məruzənin sonunda fars musiqisinin özünəməxsus üslubu vurğulanır; bu üslub mücərrəd strukturlardan daha çox xüsusi bəzəklər və kiçik musiqi formaları ilə bağlıdır.

**PRESENTATIONS**
**MƏRUZƏLƏR**

**Zeynab BAGHIR**
**(Azerbaijan National Conservatory)**

## THE XOYRAT GENRE IN IRAQI TURKMEN MUSIC: ETHNOMUSICOLOGICAL AND MUSICAL ANTHROPOLOGICAL CONTEXT

Xoyrats occupy a significant place in Iraqi Turkmen folk culture, having evolved as both a literary and a musical genre. Transmitted orally from generation to generation, this musical-poetic form reflects the historical memory, socio-cultural environment, and emotional and spiritual worldview of the Turkmen community, and has become one of the principal indicators of their ethnocultural identity. Particularly widespread in Kirkuk and its surrounding regions, xoyrats have over time developed into a symbolic genre representing the cultural self-expression of Iraqi Turkmens.

From an etymological perspective, the term xoyrat is believed to derive from the word xori/xor, which initially carried negative connotations associated with the social and religious perception of music and musicians. This attitude influenced the social status of performers in earlier periods; however, over time, xoyrat evolved into a respected and professional performance tradition. As a literary genre, xoyrats are classified into anonymous and authorial examples, while structurally they are divided into pun-based (complete and incomplete) and non-pun forms. In terms of content, xoyrats encompass a broad thematic range, including historical, socio-political, domestic, ritual, love, longing, and separation motifs. As a musical genre, xoyrats belong to the category of long-air (unmetered) forms and are generally based on the modal (maqam) system, characterized by a strong improvisational nature. Xoyrat modes have been transmitted through the master–apprentice tradition, and systematic notation has remained limited. In comparison with other long-form genres, xoyrats differ both in poetic structure and melodic development, requiring a wide vocal range and strong expressive capacity from the performer. The tradition of "calling xoyrat" holds an important place in social gatherings and ceremonial contexts, often performed in the form of poetic and musical dialogue. Thus, xoyrats represent a complex, multilayered, and distinctive cultural phenomenon within the musical-poetic heritage of Iraqi Turkmens.

**Zeynəb BAĞIROVA**
**(Azərbaycan Milli Konservatoriyası)**

## İRAQ TÜRKMAN MUSİQİSİNDƏ XOYRAT JANRI: ETNOMUSİQİŞÜNASLIQ VƏ MUSİQİ ANTROPOLOGİYASI KONTEKSTİNDƏ

Xoyratlar həm ədəbi, həm də musiqi janrı kimi inkişaf edərək İraq türkmanlarının xalq mədəniyyətində mühüm yer tutur. Nəsildən-nəslə şifahi şəkildə ötürülən bu musiqili-poetik forma türkman cəmiyyətinin tarixi yaddaşını, sosial mühitini və mənəvi dünyasını əks etdirir. Xüsusilə Kərkük və ətraf bölgələrdə geniş yayılan xoyratlar zaman keçdikcə İraq türkmanlarının mədəni özünüifadəsinin simvoluna çevrilmişdir.

Etimoloji baxımdan "xoyrat" termininin "xori/xor" sözündən yarandığına inanılır. Əvvəllər bu söz musiqiyə və musiqiçilərə qarşı olan bəzi mənfi sosial və dini yanaşmalarla bağlı idi. Bu münasibət keçmişdə ifaçıların sosial statusuna da təsir göstərmişdi; lakin zamanla xoyrat hörmətli və peşəkar bir ifaçılıq ənənəsinə çevrilir. Ədəbi janr kimi xoyratlar anonim (müəllifi bilinməyən) və müəllifli nümunələrə, quruluşuna görə isə cinaslı və cinassız formalara bölünür. Mövzu baxımından xoyratlar tarix, siyasət, məişət, mərasimlər, sevgi və həsrət kimi geniş sahələri əhatə edir.

Musiqi janrı kimi xoyratlar "uzun hava" (ritmsiz) formasına aiddir, məqam sisteminə əsaslanır və güclü improvizasiya xüsusiyyətinə malikdir. Xoyrat məqamları ustad-şəyird gələnəyi ilə ötürülmüş, onların notlaşdırılması isə məhdud qalmışdır. Digər uzun hava janrları ilə müqayisədə xoyratlar həm poetik quruluşu, həm də melodiya inkişafı ilə fərqlənir; bu janr ifaçıdan geniş səs diapazonu və güclü emosional ifadə qabiliyyəti tələb edir. Məclislərdə və mərasimlərdə "xoyrat çağırmaq" ənənəsi mühüm yer tutur və çox vaxt dialoq (deyişmə) şəklində ifa olunur. Beləliklə, xoyratlar İraq türkmanlarının musiqi və poeziya irsində mürəkkəb və özünəməxsus bir mədəni hadisədir.

**Fakhraddin BAKHSHALIYEV**
**(Azerbaijan National Conservatory)**

## THE MAQAM SYSTEM AND EASTERN PANTHEISM

The Eastern maqam (modus) system encompasses not only the science of music but also Eastern poetry and pantheistic Eastern philosophy. This philosophy systematically and logically orders the manifestations of the Sufi worldview—such as ecstasy, trance, and Divine intoxication—and enriches them with aesthetic categories. Although Eastern maqams, with their measures and boundaries, adhere to the Pythagorean octave principle, the processes occurring within this framework reflect the East's unique dynamics. According to the theory of sacred numbers like 3, 5, 7, and 40, the seventh tone being the final note harmonizes with the seven-stage developmental tendency in Eastern Sufism. The return to the first tone after the final one, arising as a necessity from nature, also philosophically signifies the non-linear representation of the Divine concept in art. The parallels that Eastern pantheism, and particularly the Hurufi philosophy, establish on numbers and letters are simultaneously completed through words and poetry. The unity of form and content created by the poetic text provides the maqam through which a Sufi performing a mugham ascends to the Divine. In this sense, the term "maqam" should also be understood. Each of the seven tones represents an individual maqam. The return from the last, i.e., the seventh maqam, to the first maqam constitutes a circle. This circular structure was once defined by Safi-al-Din al-Urmavi in his work "Advar." The maqam creativity, in which music, poetry, performance techniques, and ultimately the performer's philosophical methodology all participate together, constitutes a syncretic unity. In Eastern Sufism, this is referred to as the "perfect human" formula. A person cannot always be perfect; however, events such as the art of maqam enable one to attain perfection within a certain temporal framework. Philosophers call this "absolute time." Yet even this time is relative to the time we experience. This paradox demonstrates that, according to Eastern pantheism, God exists in all times and in all places.

**Fəxrəddin BAXŞƏLİYEV**
**(Azərbaycan Milli Konservatoriyası)**

## MƏQAM SİSTEMİ VƏ ŞƏRQ PANTEİZMİ

Şərq məqam sistemi təkcə musiqi elmini deyil, həm də Şərq poeziyasını və panteist Şərq fəlsəfəsini özündə birləşdirir. Bu fəlsəfə sufi dünyagörüşünün təzahürlərini (məsələn: vəcd, trans və İlahi eşq) sistemli şəkildə nizamlayır və onları estetik anlayışlarla zənginləşdirir. Şərq məqamları öz ölçü və sərhədləri ilə Pifaqorun oktava prinsipinə əsaslansa da, bu çərçivədə baş verən proseslər Şərqin özünəməxsus dinamikasını əks etdirir. 3, 5, 7 və 40 kimi müqəddəs rəqəmlər nəzəriyyəsinə görə, yeddinci tonun sonuncu səs olması Şərq sufizmindəki yeddi mərhələli inkişaf meyli ilə uyğunluq təşkil edir. Sonuncu tondan sonra yenidən birinci tona qayıdış, təbiətdən gələn bir zərurət olmaqla yanaşı, həm də sənətdə İlahi anlayışın qeyri-xətti (dairəvi) təsvirini fəlsəfi cəhətdən ifadə edir. Şərq panteizminin, xüsusilə də Hürufi fəlsəfəsinin rəqəmlər və hərflər üzərində qurduğu paralellər, eyni zamanda söz və poeziya vasitəsilə tamamlanır. Poetik mətnin yaratdığı forma və məzmun vəhdəti, muğam ifa edən sufinin İlahiyə ucalması üçün bir "məqam" (pillə) rolunu oynayır.

"Məqam" terminini həm də bu mənada anlamaq lazımdır. Yeddi tonun hər biri ayrı-ayrı məqamları təmsil edir. Sonuncu, yəni yeddinci məqamdan birinci məqama qayıdış bir dairə (dövrə) yaradır. Bu dairəvi quruluşu vaxtilə Səfiəddin Urməvi özünün "Kitabül-Ədvar" ("Dairələr kitabı") əsərində müəyyən etmişdi. Musiqi, poeziya, ifaçılıq texnikası və ən nəhayət ifaçının fəlsəfi yanaşmasının birləşdiyi məqam yaradıcılığı bir vəhdət təşkil edir. Şərq sufizmində bu, "kamil insan" düsturu adlanır. İnsan hər zaman kamil ola bilməz; lakin məqam sənəti kimi hadisələr insana müəyyən bir zaman çərçivəsində kamilliyə çatmağa imkan verir. Filosoflar bunu "mütləq zaman" adlandırırlar. Lakin bu zaman belə bizim yaşadığımız zamanla müqayisədə nisbidir. Bu ziddiyyətlilik göstərir ki, Şərq panteizminə görə, Tanrı hər zaman və hər yerdə mövcuddur.

**Alexandra BALANDINA**
**(Ionian University)**

## RECONFIGURING MAKAM: HISTORY, IDEOLOGY, AND PEDAGOGY IN GREECE

This paper offers an ethnographically grounded examination of makam culture in contemporary Greece, approaching makam not as a fixed modal system but as a historically layered, ideologically charged, and pedagogically contested form of musical knowledge. Rather than providing a technical account of makam theory, the paper explores how makam has been translated, re-named, re-contextualized, and selectively transmitted within Greek musical practice and discourse.

The discussion situates makam within the longer history of modal music in Greece from the late nineteenth century onwards, tracing its presence in urban popular and traditional genres such as café-aman repertoires, Smyrnaic song, and early rebetiko. It examines the gradual transformation of makam into δρόμοι, a process that allowed modal practices to persist while weakening the role of seyir, melodic hierarchy, and microtonality. Makam thus survived musically, even as its conceptual and theoretical coherence became increasingly fragmented. The paper further argues that makam constitutes an ideological problem in the Greek context. Closely associated with Ottoman and Turkish heritage, makam destabilizes dominant narratives of musical Greekness and reactivates long-standing East–West tensions. In response, it is frequently renamed as Byzantine, Smyrnaic, or Anatolian, historicized back into antiquity, or avoided altogether. These strategies reveal makam as a site of cultural negotiation rather than a neutral musical system. Drawing on Greek-language scholarship, contemporary writings, and ethnographic observation, the paper highlights the selective and often ideologically filtered ways in which makam theory is presented today. It concludes by addressing the problem of makam pedagogy in Greece, emphasizing the tension between embodied, practice-based modes of learning and institutional teaching frameworks. An ethnographic perspective is proposed as essential for understanding how makam knowledge is negotiated, constrained, and reconfigured in contemporary Greek musical life.

**Aleksandra BALANDİNA**
**(İon Universiteti)**

## MƏQAMI YENİDƏN FORMALAŞDIRMAQ:
## YUNANISTANDA TARİX, İDEOLOGİYA VƏ TƏDRİS

Məqalədə müasir Yunanıstandakı məqam mədəniyyəti etnoqrafik araşdırmalar əsasında təhlil edilir. Burada məqama sadəcə sabit bir musiqi sistemi kimi deyil, tarixi təbəqələrdən keçmiş, ideoloji yüklü və tədrisində müxtəlif fikirlər olan bir bilik forması kimi baxılır. Məqalə məqam nəzəriyyəsinin texniki tərəflərindən çox, yunan musiqi təcrübəsində və müzakirələrində məqamın necə tərcümə olunduğunu, yenidən adlandırıldığını və ötürüldüyünü araşdırır.

Tədqiqatda əsasən XIX əsrin sonlarından etibarən Yunanıstandakı məqam musiqisinin tarixi izlənilir. Bu musiqinin "kafe-aman" (Osmanlı və Yunanıstanda geniş yayılmış kafe mahnıları), "İzmir mahnıları" (İzmirdən Yunanıstana böyük köç etmiş qaçqınların vətən eşqini ifadə edən mahnılar) və erkən "rebetiko" (Yunanıstan blüzü) kimi şəhər musiqi janrlarındakı varlığına nəzər salınır. Məqamın tədricən “dromi” (yollar) anlayışına çevrilməsi prosesi təhlil edilir. Məlum olur ki, bu proses məqamın yaşamasına kömək etsə də, “seyir” (melodik hərəkət), melodik iyerarxiya və mikrotonallıq kimi vacib elementlərin rolunu zəiflətmişdir. Beləliklə, məqamın nəzəri bütövlüyü parçalansa da, musiqi anlayışı kim yaşamağa davam etmişdir.

Məqalədə həmçinin məqamın Yunanıstan kontekstində həm də ideoloji bir məsələ olması vurğulanır. Osmanlı və türk mirası ilə yaxından bağlı olduğu üçün məqam, yunan musiqisinin “milli kimliyi” haqqındakı əsas fikirləri sarsıdır və Şərq-Qərb gərginliyini yenidən canlandırır. Buna cavab olaraq məqam tez-tez “Bizans”, “İzmir” və ya “Anadolu” musiqisi kimi yenidən adlandırılır, qədim dövrlərlə əlaqələndirilir və ya bəzən ondan tamamilə qaçılır. Bu yanaşmalar göstərir ki, məqam neytral bir musiqi sistemi deyil, mədəni bir mübarizə meydanıdır. Sonda Yunanıstanda məqamın tədrisi problemi, yəni praktiki öyrənmə ilə rəsmi institut dərsləri arasındakı ziddiyyətlərdən söz açılır.

**Azer CELEBIANI**
**(Azerbaijan National Conservatory)**

## ARUZ AND MUSIC: A PASSAGE FROM THE MUSICAL TREATISE BUHUR AL-ALḤAN

This presentation examines how the relationship between two sciences — music and prosody (ʿaruz) — is explained and analyzed in the treatise on music *Buhūr al-alḥān dar ʿilm-i mūsīqī va nisbaẗ-i ān ba ʿarūz*, ("The Modes of Melodies in the Science of Music and its Relationship to Prosody") written in 1904 by the Iranian poet, writer, and artist Forsat al-Dowleh Shirazi (1854-1920). The work is not limited to a single discipline; rather, it provides information on both music theory and prosody while also addressing the systematic relationship between these two fields.

Structurally, the treatise consists of two parts. The first of them explains the theory of music in earlier periods as well as in the author's own time. The second one is devoted to the explanation of the names of the 19 metrical patterns *(buhūr)* in prosody, as well as the presentation of poetic examples from both earlier poets and those of the author's time.

The main aim of this presentation is to analyze how Forsat al-Dowleh Shirazi identifies the correspondence between the rhythmic structures in music and prosody and how these two systems are balanced with each other. The results show that the author understands the science of prosody as closely connected to music theory, which plays an important role in performance practice. Therefore, knowledge of prosody is considered essential for singers. Furthermore, the treatise provides detailed references regarding the metrical classification of poems, and it explains the conditions under which poetry can be performed and seven multimodal compositions (*dastgāh*) in which it may be sung. In this respect, the work can be regarded as an important source of both theoretical and practical significance for musicians of its time. Moreover, the concept proposed by Forsat al-Dowleh Shirazi regarding the subject of music as an auditory perception (*samʿ*) appears to exhibit a notable correspondence with contemporary frameworks in cognitive music science.

**Azər ÇƏLƏBİANİ**
**(Azərbaycan Milli Konservatoriyası)**

## ƏRUZ VƏ MUİQİ: "BÜHURÜL-ƏLHAN" MUSİQİ TRAKTATINDAN BİR PARÇA

Məqalədə 1904-cü ildə iranlı şair, yazıçı və rəssam Fürsət əd-Dövlə Şirazi (1854-1920) tərəfindən yazılmış "Bühurül-əlhan" ("Musiqi elmində nəğmələrin bəhrləri və onun əruzla əlaqəsi") adlı traktatda musiqi və əruz (vəzn) elmləri arasındakı əlaqənin necə izah edildiyi araşdırılır. Bu əsər yalnız bir sahə ilə məhdudlaşmır. Burada həm musiqi nəzəriyyəsi, həm də əruz haqqında məlumatlar verilir və bu iki sahə arasındakı sistemli əlaqələr göstərilir.

Risalə iki hissədən ibarətdir: Birinci hissədə həm qədim dövrlərin, həm də müəllifin yaşadığı dövrün musiqi nəzəriyyəsi izah olunur. İkinci hissə isə əruz vəznindəki 19 bəhrin (metrik ölçünün) adlarının izahına və klassik, eləcə də müasir şairlərin şeir nümunələrinin təqdimatına həsr olunub.

Məruzənin əsas məqsədi Fürsət əd-Dövlə Şirazinin musiqi və əruz arasındakı ritmik uyğunluğu necə müəyyənləşdirdiyini və bu iki sistemin bir-biri ilə necə tarazlandığını təhlil etməkdir. Araşdırmanın nəticələri göstərir ki, müəllif əruz elmini musiqi nəzəriyyəsi ilə sıx bağlı hesab edir və bunun ifaçılıqda mühüm rol oynadığını vurğulayır. Bu səbəbdən əruz elmini bilmək xanəndələr üçün vacib sayılır. Bundan əlavə, traktatda şeirlərin vəzn bölgüsü haqqında ətraflı məlumat verilir, poeziyanın hansı şərtlərlə və hansı yeddi dəstgahda oxunması izah olunur. Bu baxımdan əsər öz dövrünün musiqiçiləri üçün həm nəzəri, həm də praktiki cəhətdən mühüm mənbədir. Həmçinin, müəllifin musiqini "eşitmə qavrayışı" (səma) mövzusu kimi təqdim etməsi müasir koqnitiv musiqi elminin yanaşmaları ilə üst-üstə düşür.

**Polina DESSIATNITCHENKO**
**(SOAS University of London)**
**Saeid KORDMAFI**
**(SOAS University of London)**

## FEELINGS BEYOND FRONTIERS: CONTEMPORARY MUGHAM CREATIVITY AND ITS LINKS TO IRANIAN CLASSICAL MUSIC IN THE DISCOURSES OF AZERBAIJANI

**MUSICIANS**

The creativity of Azerbaijani musicians throughout the last few centuries presents many examples of how local mugham practices are linked to Iranian classical music. Following extensive repertorial interdependencies between the two traditions until the mid-nineteenth century (Djani Zadeh 2002; Sumits 2011) and with extensive collaborations between musicians across the Aras River at the cusp of the twentieth century, which in part led the imitation of Iranian singing in the 1960s (Chelebi 2009), there is a continuation of reliance on Iranian classical repertoires and aesthetics in present-day attempts to reverse Soviet changes. In this paper, we focus on current connections between the two traditions in creativity of Azerbaijani musicians and on their discourses about this relationship. How do musicians make sense of Azerbaijani mugham as a distinct practice while at the same time acknowledging continuous ties to Iranian music and other maqam repertoires? How does such musical creativity serve as a tool to critically reflect on identity politics? Which theoretical frameworks, such as "cultural" and "musical" intimacies (Herzfeld 1997; Dueck 2013), "intentional hybridization" (Eisenberg 2024), or musical revival (Livingston 1999; Hill, Juniper & Caroline Bithel 2014) would fit to describe these musical exchanges? Specific case studies from individual repertoires and collaborative projects demonstrate which elements of Iranian music serve as desired additions into current practices of mugham musicians. In this paper, we cover examples of altered fretting (within the contested discourse of intervallic structures), new melodic sections and sentences, and reconstructions of entire cycles. Moreover, we question the centrality of feelings in the discourses of musicians, as Azerbaijani musicians often refer to intense emotions as a basis for their musical borrowings. Using words such as "genetic code," musicians point to the sensual, visceral, affective dimension that guides them when inserting and altering musical features. We conclude the paper with questions about what this affective realm is and why it gains significance for musicians today.

**Polina DESSİATNİÇENKO**
**(SOAS London Universiteti)**
**Səid KORDMAFİ**
**(London Universitetinin SOAS məktəbi)**

## SƏRHƏDLƏRİ AŞAN DUYĞULAR: MÜASİR MUĞAM YARADICILIĞI VƏ ONUN AZƏRBAYCAN MUSİQİÇİLƏRİNİN DÜŞÜNCƏSİNDƏ İRAN KLASSİK MUSİQİSİ İLƏ ƏLAQƏLƏRİ

Son bir neçə əsr ərzində Azərbaycan musiqiçilərinin yaradıcılığında yerli muğam ənənələrinin İran klassik musiqisi ilə necə bağlı olduğuna dair bir çox nümunələrə rast gəlinir. XIX əsrin ortalarına qədər bu iki ənənə arasında repertuar baxımından sıx bağlılıq mövcud idi. XX əsrin əvvəllərində isə Araz çayının hər iki tayındakı musiqiçilər arasında geniş əməkdaşlıqlar olmuşdur (bu, hətta 1960-cı illərdə İran oxuma üslubunun təqlid edilməsinə də gətirib çıxarmışdı). Bu gün Sovet dövrünün gətirdiyi dəyişiklikləri geridə qoymaq istəyən musiqiçilər yenidən İran klassik musiqi repertuarına və estetikasına üz tuturlar.

Azərbaycan musiqiçilərinin yaradıcılığında bu iki ənənə arasındakı müasir əlaqələrə və musiqiçilərin bu münasibətlər haqqındakı fikirlərinə diqqət yetiririk. Musiqiçilər İran musiqisi ilə bağları qəbul edərək Azərbaycan muğamını necə müstəqil bir sənət kimi izah edirlər? Bu yaradıcılıq "kimlik siyasəti" haqqında düşünmək üçün necə bir alətə çevrilir?

Tədqiqatda bəzi musiqiçilərin repertuarı və ortaq layihələrindən nümunələr gətirilir. Görünür ki, müasir muğam ifaçıları İran musiqisindən pərdə quruluşları, yeni melodik cümlələr və bütöv silsilələrin bərpası kimi elementləri mənimsəyirlər. Bundan əlavə, biz musiqiçilərin "hisslərə" niyə bu qədər önəm verdiyini araşdırırıq. Azərbaycan musiqiçiləri başqa ənənələrdən nəsə götürərkən tez-tez "genetik kod" kimi ifadələr işlədərək bu prosesin daxili bir duyğu və təsir vasitəsilə baş verdiyini deyirlər. Məqalənin sonunda bu "duyğu aləminin"nə olduğu və bu gün musiqiçilər üçün niyə bu qədər vacib olduğu barədə suallar yaradır.

**Alexander DJUMAEV**
**(Institute of Cultural Research and Intangible Culture Heritage of the Ministry of Culture of the Republic of Uzbekistan)**

## THE SHARED CHARACTER OF THE MYTHIC-POETICAL AND HISTORIC-CULTURAL BASIS OF CONCEPTIONS OF CENTRAL ASIAN MAQOMAT AND AZERBAIJANI MUGHAMAT

Study of the written sources of the late Middle Ages and the early 20$^{th}$ century confirms the shared character of the mythic-poetical and historic-cultural basis of the Central Asian *maqomat* and Azerbaijani *mughamat*. Art music in both traditions was guided by an analogous code of myths, legends and traditions, and a complex of musical-aesthetic notions on creativity, performing and listening. There were shared legendary figures – founders of similar mythical histories of *maqomat* and *mughamat*. A special place in the musical-poetical tradition of old Turkistan was occupied by the poetry of Fuzuli. His refined and multiciphered poetry embodied Islamic civilization and the "world of Islam". The world of images and emotions contained in Fuzuli was taught in traditional schools (*maktab*) across these regions. The poetry of Fuzuli, alongside other poets, was also included in modern school programs.

The poem "Laili and Majnun," and its musical theater performances which drew on *mugham*/*maqom* music, has special significance for both cultures. The poetry of Fuzuli retained its influence on the world outlook of the intellectual elite and well-educated people of Uzbekistan during the Soviet era, throughout the 1920s -1950s and again later. The 1910s-1920s was a period of active influence from the Azerbaijani musical and musical-theater tradition on the culture of Turkestan, and there was significant interaction between the two musical worlds. In my opinion, a possible hypothesis can explain this phenomenon: both *maqam* traditions can be characterized by categories of Islamic culture, *zohir* and *botin.* Perhaps under the influence of these categories – through the attraction of opposites (among other reasons) – one can explain the deep and long-standing interest among the traditional *maqom* performers of Uzbekistan in Azerbaijani *mugham* music.

**Aleksandr CUMAYEV**
**(Özbəkistan Respublikası Mədəniyyət Nazirliyinin**
**Mədəniyyətşünaslıq və Qeyri-Maddi Mədəni İrs İnstitutu)**

## MƏRKƏZİ ASİYA MƏQAMATI VƏ AZƏRBAYCAN MUĞAMATININ MİFOLOJİ-POETİK VƏ TARİXİ-MƏDƏNİ ƏSASLARININ ORTAQLIĞI

Son orta əsrlər və XX əsrin əvvəllərinə aid yazılı mənbələrin araşdırmalarından məlum olur ki, Mərkəzi Asiya məqamatı və Azərbaycan muğamatı eyni mifoloji-poetik və tarixi-mədəni köklərə malikdir. Hər iki ənənənin musiqi sənəti oxşar miflər, əfsanələr və yaradıcılıq, ifaçılıq, dinləmə haqqındakı estetik anlayışlar üzərində qurulub. Məqamat və muğamatın mifoloji tarixində əfsanəvi şəxsiyyətlər eyni qurucu fiqur kimi qəbul edilir.

Məlumdur ki, Köhnə Türkistanın musiqi və poeziya ənənəsində Füzuli yaradıcılığı xüsusi yer tutur. Onun incə və çoxmənalı poeziyası "İslam sivilizasiyası"nı və "İslam dünyası"nı təmsil edirdi. Füzulinin yaratdığı obrazlar və duyğular aləmi bu bölgələrin ənənəvi məktəblərinə öyrədilir. "Leyli və Məcnun" poeması və muğam/məqam musiqisinə əsaslanan musiqili teatr tamaşaları hər iki mədəniyyət üçün böyük əhəmiyyət kəsb edir. Füzuli poeziyası hətta Sovet dövründə belə Özbəkistanın ziyalı təbəqəsinin dünyagörüşünə güclü təsir göstərmişdir.

1910-1920-ci illər Azərbaycan musiqi və teatr ənənəsinin Türkistan mədəniyyətinə ən aktiv təsir etdiyi və bu iki musiqi dünyasının bir-biri ilə sıx əlaqədə olduğu dövrdür. Fikrimizcə, bu hadisəni bir fərziyyə ilə izah etmək olar: hər iki məqam ənənəsi İslam mədəniyyətinin "zahir" və "batin" təbəqələri ilə xarakterizə edilə bilər. Özbəkistanın ənənəvi məqam ifaçılarının Azərbaycan muğamına olan dərin və uzunmüddətli marağını bəlkə də bu təbəqələrin təsiri – əks qütblərin bir-birini cəlb etməsi ilə izah etmək olar.

**Stefan WILLIAMSON FA**
**(University of Cambridge)**

## MUGHAM AESTHETICS IN TRANSNATIONAL AZERBAIJANI DEVOTIONAL RECITATION

This paper examines how mugham moves across devotional and secular domains, and across national

borders, through an analysis of the intertwined practices of *məddahlıq*, *mersiyəxanlıq*, and *rovzəxanlıq* on both sides of the Aras River and beyond. Historical accounts show that, alongside specialist reciters who performed laments in honour of Imam Husayn and the Prophet's family during the Islamic month of Muharram, mourning *məclis* gatherings also functioned as key spaces for the vocal training of prominent *xanəndə*. These settings supported both the development of mugham vocal technique and the transmission of devotional poetry by Azerbaijani literary figures such as Fuzuli, illustrating the permeability of boundaries between religious expression and the emerging mugham canon. Historically and into the present, Azerbaijani *məddah* have drawn upon knowledge of mugham and modal structures, while *xanəndə* have maintained close connections with devotional repertoires, a relationship 12mphasized in recent scholarship (Dessiatnitchenko 2023). I argue that in the post-Soviet period, the intensified engagement of devotional reciters with mugham aesthetics, together with increased openness to instrumental accompaniment, has contributed to the growing popularity of *məddah* from the Republic of Azerbaijan among Azerbaijani- and Turkish-speaking communities seeking affective and musically sophisticated forms of devotion to the Prophet's family. Based on ethnographic research with reciters and listeners in Azerbaijan, Georgia, Iran, Turkey, and the European diaspora, this paper reassesses the conceptual and sonic borders of both mugham and *məddahlıq*. By tracing how these practices circulate across political and religious boundaries, the study highlights the fluidity of mugham as it is reshaped through devotional performance, while showing how devotional contexts, in turn, continue to shape mugham aesthetics, pedagogy, and transnational reception.

**Stefan UİLLİAMSON FA**
**(Kembric Universiteti)**

## SƏRHƏDLƏRİ AŞAN AZƏRBAYCAN DİNİ OXUMALARINDA MUĞAM ESTETİKASI

Məqalədə muğamın dini və dünyəvi sahələrdə, eləcə də ölkə hüdudlarından kənarda necə hərəkət etdiyi araşdırılır. Tədqiqatda Araz çayının hər iki tayında və digər bölgələrdə mövcud olan "məddahlıq" (tərif etmə), "mərsiyəxanlıq" (ağı söyləmə) və "rövzəxanlıq" (hadisənin hekayə kimi nəqli) ənənələrinin bir-biri ilə əlaqəsi təhlil edilir.

Tarixi məlumatlar göstərir ki, Məhərrəm ayında İmam Hüseyn və Peyğəmbər ailəsinin şərəfinə oxunan dini məclislər, həm də görkəmli xanəndələrin səs təlimi keçdiyi əsas məkanlardan olub. Bu məclislər həm muğam ifaçılığı texnikasının inkişafına, həm də Füzuli kimi şairlərin dini mövzulu şeirlərinin yayılmasına kömək edib. Bu da dini ifadə ilə muğam sənəti arasındakı sərhədlərin nə qədər keçidli olduğunu göstərir. Tarixən və bu gün də Azərbaycan məddahları muğam və məqam quruluşlarından istifadə edir, xanəndələr isə dini repertuarlar ilə sıx əlaqə saxlayırlar.

Müəllifin fikrincə Sovet dövründən sonra dini oxuma ustadlarının muğam estetikasına daha çox müraciət etməsi və musiqi alətlərinin müşayiətinə olan açıq münasibəti, Azərbaycanda məddahların populyarlığını artırıb. Onlar həm Azərbaycan, həm də Türkiyə daxilində duyğusal və musiqi baxımından zəngin dini oxumalar axtaran icmalar arasında rəğbət qazanırlar. Azərbaycan, Gürcüstan, İran, Türkiyə və Avropadakı etnoqrafik araşdırmalara əsaslanan bu məqalə həm muğamın, həm də məddahlıq anlayışına, həm də səs sərhədlərinə yenidən nəzər salır.

**Rachel HARRIS**
**(SOAS University of London)**

## MUSICAL ENCOUNTERS ACROSS THE SOVIET-CHINESE DIVIDE

In this presentation I reflect on a project to stimulate musical encounters across Central Asian borders, bridging the 20th century divide between Uzbek and Uyghur maqom/muqam traditions. I focus on the intimate moments of negotiation and creative adaptation as a group of Uyghur and Uzbek musicians, deeply rooted in their respective 12aqam traditions, devise and perform an original concert repertoire based in musical collaboration. This practice-based creative research experiment is part of a wider project that explores the submerged links between the "national cultures" which dominated the 20th century. Our project uses archival research to uncover their shared histories and works with contemporary musicians to explore the potentials of new cross-border creativity. The process of breaking through the walls of these entrenched national canons is a delicate one, which challenges national sensibilities, embodied habits of performance, and ways of hearing.

The research probes historical processes of aesthetic formation and contemporary creative practice in rehearsal through a series of questions. How do shared musical traditions separated by politics for a short period of 100 years come to sound so “Other”? How do musicians go about bridging these divides, creatively adapting their practice in order to fit together with their collaborators? What challenges, and what kinds of value do they see in these projects of “neighbourly” collaboration? For researchers, this kind of project throws up a set of parallel questions concerning research method and impact. How might we go about capturing and interpreting these moments of encounter, and what work is our research and documentation performing in the various locales where it takes place?

**Reyçel HARRİS**
**(London Universitetinin SOAS məktəbi)**

## SOVET-ÇİN SƏRHƏDİNDƏ MUSİQİ GÖRÜŞLƏRİ

Məqalədə Mərkəzi Asiya sərhədləri boyunca musiqi əlaqələrini canlandırılmasından və XX əsrdə Özbək və Uyğur məqam/muqam ənənələri arasında yaranmış uçurumun aradan qaldırılması barədə danışılır. Müəllif əsasən ənənələrinə dərindən bağlı olan bir qrup uyğur və özbək musiqiçisinin birgə əməkdaşlığı əsasında yeni bir konsert proqramının hazırlaması və ifası zamanı yaranan yaradıcılıq proseslərinə diqqət yetirir.

Bu təcrübəyə əsaslanan araşdırma XX əsrə hakim olan “milli mədəniyyətlər” arasındakı gizli qalan bağları araşdıran böyük bir layihənin hissəsidir. Layihədə ortaq tarixləri üzə çıxarmaq üçün arxiv araşdırmalarından istifadə edilir və yeni sərhədlərarası yaradıcılıq imkanlarını araşdırmaq üçün müasir musiqiçilər cəlb olunur.

Sərtləşmiş milli qaydaların (kanonların) divarlarını yıxmaq prosesi olduqca həssas məsələdir. Belə ki, bu həm milli hissləri, həm ifaçılıq vərdişlərini, həm də eşitmə tərzini sınağa çəkir. Tədqiqat bir neçə sual vasitəsilə estetik formalaşma prosesini və məşqlər zamanı ortaya çıxan yaradıcılıq təcrübəsini araşdırır: Siyasi məsələlərə görə cəmi 100 il ərzində bir-birindən ayrılmış ortaq musiqi ənənələri necə olur ki, bir-birinə bu qədər “yad” gəlir? Musiqiçilər bu fərqləri necə aradan qaldırır və tərəfdaşları ilə uyğunlaşmaq üçün öz ifalarını necə dəyişirlər? Onlar bu cür “qonşuluq” əməkdaşlıqlarında hansı çətinlikləri və üstünlükləri görürlər?

Tədqiqatçılar üçün bu layihə həm də metodologiya ilə bağlı suallar doğurur: Bu görüş anlarını necə qeydə alıb şərh etmək mümkündür və apardığımız sənədləşdirmə işi bu bölgələrdə nə kimi rola malikdir?

**Lala HUSEYNOVA**
**(Azerbaijan National Conservatory)**

## DISTRIBUTION OF THE “FELEK” THEME IN TRADITIONAL MUSICAL AND POETIC GENRES ACROSS EASTERN CULTURES

The theme of fate or destiny is one of the most ancient in the artistic consciousness of humanity: "kadar," "gismet," "taleh," "felek"—these are numerous designations and nuances of the concept of fate among Eastern peoples. In this presentation, I will focus specifically on felek, as it is this word that gave its name to several musical phenomena. The Arabic word "felek," literally meaning sky, firmament, was perceived in the Ancient East as the embodiment of fate, destiny, and good fortune. The roots of this phenomenon lie in folk tales and superstitions firmly rooted in ancient mythology and religious beliefs. The worship of stars, planets, and other celestial bodies, known as astrolatry, was common among many ancient peoples, especially those who professed Zoroastrianism. While Zoroastrianism spread across a vast area, it is the present-day regions of Iran and Azerbaijan that are considered the birthplace of the founder of this teaching, Zaradustra. Although Islam introduced a new meaning to the relationship between human and higher power, Sufi philosophy perceived felek as a formidable force, difficult to resist. Therefore, classical Eastern poetry rooted in Sufism (Omar Khayyam, Nizami Ganjavi, Jalal ad-Din Rumi, Abdrakhman Jami, Imaded-Din Nasimi, Shah Ismail Khatai, Muhammad Fuzuli, Seyid Azim Shirvani, etc.), contains numerous examples of addressing "felek" and "charkhi-felek." Moreover, the falak genre of Tajik oral professional folk music, widespread in the mountainous regions of Tajikistan, Afghanistan, and Iran, is of particular interest. Falak, like maqam, is a worldview and perception, a principle of musical thinking among Tajiks, and, as it turns out, not only among

them. Broadly speaking, falak refers to anything that lacks a metrically organized basis, is improvisatory, and is expressed freely, often in a high register. The musical and stylistic characteristics and performance style of these examples, including the presence of falak-related music also in Afghanistan, Azerbaijan, and Turkey, allow us to consider these phenomena within the context of a unified system of maqamat, connected by a common religious and philosophical foundation.

**Lalə HÜSEYNOVA**
**(Azərbaycan Milli Konservatoriyası)**

## ŞƏRQ XALQLARININ MUSİQİ VƏ POEZİYA YARADICILIĞINDA "FƏLƏK" MÖVZUSUNUN ƏKSİ

“Tale” və ya “taleh” mövzusu bəşəriyyətin bədii təfəkküründə ən qədim mövzulardan biridir. “Qədər”, “qismət”, “taleh”, “fələk” – bunlar Şərq xalqları arasında tale anlayışının müxtəlif adları və çalarlarıdır. Bir neçə musiqi hadisəsi adını məhz bu sözdən götürdüyü üçün müəllif öz təqdimatında məxsusi olaraq “fələk” üzərində dayanır. Ərəbcədən hərfi mənası "səma", "göy üzü" olan "fələk" sözü Qədim Şərqdə bəxt, tale və qismətin təcəssümü kimi qəbul edilirdi.

Bu inancın kökləri qədim mifologiya və dini inanclara söykənən xalq nağılları və xurafatlara qaynaqlanır. Ulduzlara, planetlərə və digər göy cisimlərinə sitayiş (astrolatriya) bir çox qədim xalqlar, xüsusən də Zərdüştlüyə inananlar arasında geniş yayılmışdı. Zərdüştlük geniş bir əraziyə yayılsa da, bu təlimin qurucusu Zərdüştün vətəni indiki İran və Azərbaycan əraziləri hesab olunur. İslam dini insan və ali qüvvə arasındakı münasibətə yeni məna gətirsə də, Sufi fəlsəfəsi fələyi qarşısında durulması çətin olan qüdrətli bir qüvvə kimi qəbul edirdi. Bu səbəbdən sufizmə söykənən klassik Şərq poeziyasında (Ömər Xəyyam, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Əbdürrəhman Cami, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani və s.) “fələk” və “çərxi-fələk”ə müraciət edən çoxsaylı nümunələr var.

Bundan əlavə, Tacikistan, Əfqanıstan və İranın dağlıq bölgələrində geniş yayılan tacik şifahi peşəkar xalq musiqisi janrı olan “Fələk” xüsusi maraq doğurur. “Fələk” də maqam kimi taciklər (və məlum olur ki, təkcə onlar üçün deyil) üçün bir dünyagörüşü, qavrayış və musiqi təfəkkürü prinsipidir. Geniş mənada fələk müəyyən bir ölçüsü (metri) olmayan, improvizasiyalı, sərbəst və çox vaxt zil (yüksək) registrdə oxunan musiqiyə deyilir. Bu nümunələrin musiqi-üslub xüsusiyyətləri və ifa tərzi, habelə Əfqanıstan, Azərbaycan və Türkiyədə də fələklə bağlı musiqilərin olması bu hadisələri vahid bir məqamat sistemi daxilində nəzərdən keçirməyə imkan verir.

**Turan IBRAHIMOV**
**(Independent scholar)**

## AGHAKARIM NAFIZ SHIRVANI: THE VOICE AND VERSE THAT TRANSCENDED THE BORDERS OF MUGHAM

This paper examines the multifaceted artistic legacy of Aghakarim Nafiz Shirvani — a master vocalist, composer, and poet whose creative output bridges Azerbaijani mugham performance and classical Oriental poetry. Born in 1948, Nafiz is the author of over 200 tasnifs (mugham songs), more than 60 lyrical compositions, and around 500 poems written in classical aruz meter. His saginamas and ghazals vividly reflect the aesthetic, philosophical, and musical essence of mugham modes such as Shur, Rast, Segah, Mahur, and Humayun, while preserving the legacy of the Shirvan school of singers. Through his ghazals, takhmises, and naziras, Nafiz establishes a poetic dialogue with masters like Hafez Shirazi, Alisher Nava’i, Fuzuli, Seyid Azim Shirvani, Baqi, Nabi, Nishat, and Nabati — thereby connecting Azerbaijani and broader Eastern literary traditions. His Divan, composed in ten bahrs and twenty-eight prosodic patterns, represents a rare phenomenon in classical and modern Azerbaijani literature. His art, uniting voice, word, and melody, transcends cultural boundaries and embodies the spiritual universality of Azerbaijani mugham. This study evaluates the work of Aghakerim Nafiz Shirvani in the global context of Azerbaijani mugham, both across centuries and across countries - in the fields of literature, music, and cultural diplomacy. The songs, tasnifs, and pishrovs he created and restored and performed are included in the study for the first time. The presentation will feature live tasnif singing and recitation of poetry by Aghakerim Nafiz Shirvani himself.

**Turan İBRAHIMOV**
**(Müstəqil tədqiqatçı)**

## AĞAKƏRİM NAFİZ ŞİRVANİ: MUĞAMIN SƏRHƏDLƏRİNİ AŞAN SƏS VƏ SÖZ

Məruzədə ustad xanəndə, bəstəkar və şair Ağakərim Nafiz Şirvaninin çoxşaxəli yaradıcılığı araşdırılır. Nafiz Şirvaninin sənəti Azərbaycan muğam ifaçılığı ilə klassik Şərq poeziyası arasında bir körpü rolunu oynayır. 1948-ci ildə anadan olan sənətkar 200-dən çox təsnifin, 60-dan çox lirik mahnının və əruz vəznində yazılmış 500-ə yaxın şeirin müəllifidir. Onun yazdığı saqinamə və qəzəllər Şur, Rast, Segah, Mahur və Humayun kimi muğamların estetik və fəlsəfi mahiyyətini əks etdirir, eyni zamanda Şirvan xanəndəlik məktəbinin ənənələrini qoruyub saxlayır.

Nafiz Şirvani öz qəzəlləri və nəzirələri ilə Hafiz Şirazi, Əlişir Nəvai, Füzuli, Seyid Əzim Şirvani və Nəbati kimi böyük ustadlarla poetik dialoq qurur; bununla da Azərbaycan ədəbiyyatını daha geniş Şərq ədəbi ənənələri ilə bağlayır. Onun 10 bəhr və 28 vəzndə tərtib etdiyi “Divan”ı həm klassik, həm də müasir Azərbaycan ədəbiyyatında nadir bir hadisədir. Səs, söz və melodiyanı birləşdirən sənəti mədəni sərhədləri aşaraq muğamın mənəvi ucalığını təcəssüm etdirir.

Tədqiqatda ilk dəfə Ağakərim Nafiz Şirvaninin yaradıcılığı ədəbiyyat, musiqi və mədəni diplomatiya sahələri üzrə qlobal muğam kontekstində qiymətləndirilir. Müəllifin yaratdığı, bərpa etdiyi və ifa etdiyi mahnılar, təsniflər və pişrovlar ilk dəfə elmi dövriyyəyə daxil edilir.

**Fardin MAHAMMADZADE**
**(Azerbaijani National Conservatory)**

## THE ROLE OF ARUZ METRICAL PATTERNS AND TAFILA RHYMES IN THE CREATION OF MUGHAM MELODY (EXAMPLE OF SHUR MUGHAM)

In mugham art, words and music are intimately related. The role and importance of words for musical improvisation demands further scholarly attention. Undoubtedly, just as mugham has laws that have been developed and standardized over centuries, there are scientific parameters that govern words and poetry. If we take into account the links and harmony between these two types of art, we can see how the theory of aruz, which manifests itself in genres such as ghazal, qasida, etc., is integrated in mugham, and vice versa, how mugham is integrated in aruz. The most significant feature that connects both traditions is the phenomenon of rhythm. Important ideas about the unique role of rhythm and aruz in mugham, and the ways in which they manifest during improvisation, are repeatedly found in research by scholars such as Uzeyir Hajibeyli and Ekrem Jafar. In this article, we have tried to examine the relationship between the rhythmic structure of mugham melody and the rhythmic features in aruz, as well as the presence of mutual influence on each other. The parameters of metrical patterns and tafila rhymes in aruz bahrs are examined based on musical examples transcribed by the authors. We analyze these notated examples that are based on two performances of shur mugham by Talat Gasimov and Alim Gasimov. In both cases, all the sections performed throughout the dastgah, the ghazals sung in the sections, their bahrs, patterns and tafilas are examined in parallel with musical melodies.

**Fərdin MƏHƏMMƏDZADƏ**
**(Azərbaycan Milli Konservatoriyası)**

## MUĞAM MELODİKASININ YARANMASINDA ƏRUZUN QƏLİB VƏ TƏFİLƏLƏRİNİN ROLU (ŞUR MUĞAMININ TİMSALINDA)

Muğam sənətində söz və musiqi paralel addımlayır. Musiqinin, improvizənin önəmi qədər sözün də rolu və əhəmiyyəti xüsusi olaraq vurğulanmalıdır. Şübhəsiz ki, muğamın əsrlərlə cilalanan və sabitləşən qanunauyğunluqları olduğu kimi, sözün də, şeirin də tələb etdiyi elmi əsaslar mövcuddur. Bu iki sənət növü arasındakı körpünü, vəhdəti nəzərə alsaq qəzəl, qəsidə və s. janrlarda təzahür edən bu nəzəri sistem – əruz vəzni muğamda, muğam isə öz növbəsində əruzda bütünləşir. Hər ikisini isə birləşdirən ən ümdə məsələ ritm hadisəsidir. Ritmin, əruzun muğamda olan rolu və xüsusi çəkisi, improvizə zamanı hansı məzmunda üzə çıxması ilə bağlı qiymətli fikirlərə Üzeyir Hacıbəyli, Əkrəm Cəfər kimi simaların elmi araşdırmalarında dəfələrlə rast gəlinir. təqdim etdiyimiz yazıda muğam melodikasında olan ritmik quruluşun əruz elmindən gələn ritmik xüsusiyyətlərlə əlaqəsi və bir-birinə qarşılıqlı təsir prinsiplərini incələməyə çalışmışıq. Əruzun

bəhrlərində olan qəlib və təfilələrin səciyyəvi xüsusiyyətlərinə tərəfimizdən nota köçürülən nümunələr əsasında baxılır. Təhlillər Şur muğamının iki təfsiri – Tələt Qasımov və Alim Qasımovun ifasından yazılan not nümunələri əsasında aparılır. Hər iki ifada dəstgah boyunca ifa olunan bütün şöbələr, şöbələrdə oxunan qəzəllər, onların bəhri, qəlib və təfilələri musiqi melodikası ilə paralel şəkildə incələnir.

**Mehman MIKAYILOV**
**(Asaf Zeynally Music College)**

## HISTORICAL DEVELOPMENT OF MAQAM IN THE CAUCASUS REGION

An in-depth study of mugham, which is considered to be the most magnificent monument of Azerbaijani musical culture, plays an important role in familiarizing oneself with the genetic code of Azerbaijani people. Mugham plays a key role in the development of spiritual values, general culture, art and literature of the Azerbaijani people. While mugham is a representative of folklore, over the past 100 years, as a result of the efforts and hard work of the great Azerbaijani composer Uzeyir Hajibeyli, the genre has gone through much development and reached the level of professional music. Azerbaijani composers have created hundreds of songs, arias, romances, concerts, suites and symphonic mughams based on the principle of mugham-maqam. Even today, these works are highly appreciated by our people and are performed and practiced in all countries of the world, along with mugham performances. However, starting from the 1930s, certain prohibitions were imposed on the widespread promotion and performance of mugham for exactly 70 years. Although our mughamat is now valued and protected by the state, the tar and mugham have suffered many blows as a result of the prohibitions of that time. Azerbaijani tar is famous not only in the Caucasus but also throughout the world and the East with its 28 frets. However, in the 1930s, six frets were forcibly cut off. As a result of these prohibitions and the cutting of six frets of the tar, many mughams were eliminated. Today, inspired by the care our state shows for our mugham monuments, we are working to restore these mughams together with master Alim Gasimov, Fergana Gasimova, Gulyaz Mammadova and Gulyanag. We have already fully prepared the original form of the bayati-turk, shur, and bayati-kurd mughams. We are also restoring the separate musical sections and sentences of our current mughams that have been destroyed over time. Today, as a result of the efforts of the genius Uzeyir Hajibeyli, 10 sections are performed as part of shur dastgah. We have restored 70 sections of shur in their original form. In addition, we have increased rast dastgah comprised of 11 sections in standard practice to a cycle with 38 sections.

**Mehman MİKAYILOV**
**(Asaf Zeynallı adına Musiqi Kolleci)**

## QAFQAZ REGİONUNDA MƏQAMIN TARİXİ İNKIŞAFI

Azərbaycan musiqi mədəniyyətinin ən möhtəşəm abidəsi sayılan muğamların dərindən öyrədilməsi bu xalqın genetik kodu ilə tanışlıqda mühüm yer tutur. Azərbaycan xalqının mənəvi dəyərlərinin, ümumi mədəniyyətinin, incəsənətinin və ədəbiyyatının inkişafında muğamlar əsas rol oynayır. Muğamlar folklor nümayəndəsidir, lakin son 100 ildə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin səyi və zəhməti nəticəsində bu incəsənət nümayəndələri çox yüksək inkişaf yolu keçərək professional səviyyəyə gəlib çatmışdır. Azərbaycan bəstəkarları muğam məqam lad prinsipini əsas götürərək yüzlərlə mahnılar, ariyalar, romanslar, konsertlər, suitalar və simfonik muğamlar yaratmışdır. Bu gün də bu əsərlər xalqımız tərəfindən yüksək dəyərləndirilir və dünyanın bütün ölkələrində muğamları yanaşı bu əsərlər də ifa və tətbiq olunur. Amma 1930-cu illərdən başlayaraq tam 70 il muğamların geniş təbliği və ifası üzərində müəyyən qadağalar qoyulmuşdur. Müəyyən qüvvələr muğamatın bizləri keçmişə qaytardığını, guya müasir dünyanın inkişafından geri qoyduğunu təbliğ etsələr də tarımız, kamanımız və muğamatımız bu günə gəlib çıxmışdır. Artıq hal-hazırda dövlətimiz tərəfindən muğamlarımız dəyərləndirilir və qorunur. Amma buna baxmayaraq o zamanın qadağaları nəticəsində tarımız və muğamatımız çox zərbələrə məruz qalır. Azərbaycan tarı təkcə Qafqazda yox bütün dünyada və Şərqdə 28 pərdə ilə məşhurdur. Lakin 30-cu illərdə 6 pərdənin tardan kəsilib atılması məcburi şəkildə həyata keçirilmişdir. Adını belə qoymuşdular ki, o pərdələr kövrək və yanıqlı səsləndiyinə görə xalqı inkişafdan geri qoyur. Bu qadağalar və tarın 6 pərdəsinin kəsilməsi nəticəsində muğamlarımızdan Nəva, Dəşti-Əfşar, Əbu-Əta, Bayatı-türk, Siyah-ləşkər, Səhra-Şub və başqa muğamlar aradan çıxarıldı.

Bu gün dövlətimizin muğam abidələrimizə göstərdiyi qayğıdan ilham alaraq ustad Alim Qasımov, Fərqanə Qasımova, Gülyaz Məmmədova və Gülyanaq Məmmədova ilə birlikdə bu muğamların üzərində ciddi işləyərək onların bərpasına çalışırıq. Artıq orijinal formada Bayatı-türk, Şur, Bayatı-kürd muğamlarını tam hazır vəziyyətə gətirmişik. Hazırki muğamlarımızın vaxtı ilə sıradan çıxarılmış şöbə, avaz və guşələrini də bərpa edilmişdir. Bu gün də dərslikərdə dahi Üzeyir Hacıbəylinin səyi nəticəsində Şur dəsgahında 10 şöbə ifa olunur. Biz isə keçmişdə olan tam orijinal formada mövcud olmuş 70 şöbə və guşələri, Şuru bərpa etmişik. 11 şöbəli Rastı 38 şöbəyə çatdırmaqla digər muğamların da üzərində beləcə işlər aparılır.

**Kanan SADIGOV**
**(Azerbaijan National Conservatory)**

## PERFORMANCE PRACTICES OF MAQAM-MUGHAM MUSICAL TRADITIONS ACROSS WESTERN AND CENTRAL ASIA

The Azerbaijani mugham tradition is distinguished by its rich performance practices. The Azerbaijani tar occupies a central position here, and its solo instrumental performance features are of great significance. The creative legacy of master performers and their contemporaries demonstrates a wide range of playing techniques. Of particular interest is the fact that modal musical genres related to mugham exhibit certain similarities in performance practice with Azerbaijani mugham instrumentalism. In this context, the instrumental performance practices of traditional music across Western and Central Asia draw attention. These similarities may arise from the structural features of the instruments, shared performance practices, or the characteristic principles of modal music. The study focuses primarily on plucked string instruments played with a plectrum (or finger) and their performance features. It compares several similar and contrasting aspects of their playing techniques. To achieve this, the analysis examines both right-hand techniques (plectrum or finger) and left-hand techniques (finger placement), which form the core of instrumental performance across these traditions.

**Kənan SADIQOV**
**(Azərbaycan Milli Konservatoriyası)**

## QƏRBİ VƏ MƏRKƏZİ ASİYADA MƏQAM-MUĞAM MUSİQİ ƏNƏNƏLƏRİNİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan muğam ənənəsi zəngin ifaçılıq xüsusiyyətləri ilə seçilir. Burada Azərbaycan tarı mərkəzi yer tutur və onun solo ifaçılıq imkanları böyük əhəmiyyət kəsb edir. Ustad sənətkarların yaradıcılığı tar ifaçılığında çox geniş texnikaların olduğunu göstərir. Maraqlı faktlardan biri odur ki, muğamla bağlı olan digər məqam janrlarının ifa tərzi ilə Azərbaycanın instrumental muğam ifaçılığı arasında müəyyən oxşarlıqlar var. Bu baxımdan Qərbi və Mərkəzi Asiyanın ənənəvi musiqisindəki instrumental ifa qaydaları diqqəti cəlb edir.

Bu oxşarlıqlar musiqi alətlərinin quruluşundan, ortaq ifa vərdişlərindən və ya məqam musiqisinin ümumi prinsiplərindən qaynaqlana bilər. Tədqiqatda əsasən mizrab (və ya barmaq) ilə çalınan simli alətlər və onların ifa xüsusiyyətləri araşdırılır. Araşdırma zamanı bu alətlərdə çalğı texnikasının oxşar və fərqli tərəfləri müqayisə edilir. Bu məqsədlə həm sağ əl (mizrab və ya barmaq), həm də sol əl (barmaq düzümü) texnikaları təhlil olunur, çünki bu texnikalar həmin bölgələrin instrumental ifaçılığının əsasını təşkil edir.

**Aysu SADIGOVA**
**(Azerbaijan National Conservatory)**

## DEVELOPMENT AND EVOLUTION OF MUGHAM PERFORMANCE ON THE QANUN

Among Azerbaijan's national musical instruments, the qanun occupies a special place and is widely used in contemporary mugham performance. Although the introduction of the qanun into formal education was somewhat delayed during the Soviet era in the 20th century, the instrument was

nevertheless present in musical practice. The renowned performer Asya Tagiyeva (1935–2011) gained particular recognition for her interpretations of the mugham modes "*Chahargah*" and "*Bayati-Shiraz*." In 1959, through the initiative of S. Alasgarov, the qanun was included in the ensemble of the Folk Instruments Orchestra that would participate in the Decade of Azerbaijani Literature and Art in Moscow. From 1966 onwards, the instrument was gradually incorporated into the educational curriculum. Mugham lessons for qanun students were taught by tar and kamancha mugham instructors. In this regard, we especially acknowledge the contributions of the tar player, People's Artist and Associate Professor Malik Mansurov, head of the Instrumental Mugham Department at the Azerbaijan National Conservatory. At the 2013 First Instrumental Mugham Competition, the mugham *"Bayati-Shiraz*" and the "*Chahargah Composition*" were performed on the qanun using a new performance technique, influenced by the technical style of the Turkish qanun school. In contemporary practice, several techniques used in tar mugham performance—such as *xum*, *glissando*, *vibrato*, *dumb finger* (fisca), and *staccato*—are applied to qanun mugham performance as well. These techniques contribute to conveying the artistic essence of the mugham more accurately. However, excessive or inappropriate use of such techniques is undesirable and requires performers to possess refined taste and deep appreciation of mugham. Qanun performers continue to study mugham modes and attempt to improve performance approaches. In our presentation, we will conduct a comparative analysis of Asya Tagiyeva's 1950s performance of the "*Chahargah*" mugham and contemporary qanun performances of the same mugham using new technical approaches, accompanied by live performance examples.

**Aysu SADIQOVA**
**(Azərbaycan Milli Konservatoriyası)**

## QANUNDA MUĞAM İFAÇILIĞININ İNKİŞAFI VƏ TƏKAMÜLÜ

Azərbaycan milli musiqi alətləri sırasında qanun alətinin xüsusi yeri vardır və hal-hazırda muğam ifaçılığında geniş istifadə olunur. XX əsrdə Sovetlər dövründə qanun alətinin tədrisə salınması bir qədər geciksə də, buna baxmayaraq musiqi təcrübəsində bu alət hər zaman mövcud idi. Alətin tanınmış ifaçısı Asya Tağıyevanın (1935-2011) ifasında "Çahargah" və "Bayatı-Şiraz" muğamları çox məşhurlaşmışdı. 1959-cu ildə bəstəkar Süleyman Ələsgərovun təşəbbüsü ilə qanun aləti Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında Xalq Çalğı Alətləri Orkestrinin heyətinə salınır, 1966-cı ildən isə artıq tədris sisteminə daxil olmağa başlayır. O zamanlar muğam dərslərini qanun ifaçılarına tar, kamança müəllimləri tədris etmişdir.

2013-cü ildə I İnstrumental Muğam ifaçılığı müsabiqəsində "Bayatı-Şiraz" muğamı, "Çahargah kompozisiyası" qanunda yeni ifa texnikası ilə səsləndirilmişdir ki, bu ifa texnikasında türk qanun məktəbinin üslubunu sezmək çətin deyil. Müasir dövrdə tar muğam ifaçılığında geniş istifadə olunan müəyyən ştrixlər xum, qlissando, vibrato, lal barmaq (fiskə), stakatto qanun muğam ifaçılığında tətbiq edilir. Bu ştrixlər muğamların bədii cəhətdən daha dolğun səslənməsinə xidmət edir. Lakin adı çəkilən ştrixlərin yersiz istifadəsi də arzu edilən deyil. Məhz buna görə də ifaçılardan zövq və muğam hissiyyatı tələb edilir. Beləliklə, muğamlar qanun ifaçıları tərəfindən tədqiq olunur və ifaçılıqda təkmilləşdirilməyə cəhdlər edilir. Məruzədə 50-ci illərdə Asya Tağıyevanın ifa etdiyi "Çahargah" muğamı ilə müasir dövrdə qanun ifaçıları tərəfindən yeni texniki üsullarla çalınan "Çahargah" muğamı arasında müqayisələr edilərək müəllifin öz ifasında müşayiət olunacaq.

**Giultekin B. SHAMILLI**
**(The State Institute for Art Studies of the Ministry of Culture of the Russian Federation)**

## MAQAM AND LITURGY IN THE TRADITIONAL MUSIC OF THE JEWS OF PERSIA AND THE

CAUCASUS

This paper presents the findings of a recently completed monograph on the subject. The research involves the collection, systematization, supplementation, and correction of data derived from diverse sources, including encyclopedic and monographic publications in European and Eastern languages. Special attention is given to rare documents and audio recordings. A key focus of the study is the reconstruction of the maqam modal system, based on an analysis of A.-Ts. Idelson's collection of Eastern Jewish melodies and contemporary religious practice examples.

The paper offers observations regarding the assignment of specific maqam modes to particular forms of religious music—both within synagogue liturgy and outside of it. The millennia-long tradition of associating the prayer cycle with specific psycho-emotional states is highlighted, exemplified by the fact that nearly ninety percent of penitential prayers are performed in maqam Shur, historically referred to at the turn of the 18th and 19th centuries as Husseini or Husseini-e Dughah, and associated with the figure of David. This connection is systematically traced through anonymous Persian treatises on music from the 17th and 18th centuries.

Furthermore, it is noted that nearly all *kinnot* (lamentations) are performed in maqam Bayati Shiraz. An examination of current liturgical practices within the Moscow community of Caucasian Jews from Quba and Derbent reveals a significant transformation of these traditions, indicating a notable deviation from their recorded form at the beginning of the 20th century

**Gültekin ŞAMILLI**
**(Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin
Dövlət Sənətşünaslıq İnstitutu)**

## İRAN VƏ QAFQAZ YƏHUDİLƏRİNİN ƏNƏNƏVİ MUSİQİSİNDƏ MƏQAM VƏ LİTURGİYA (DİNİ AYİNLƏR)

Bu məruzə mövzu ilə bağlı yeni tamamlanmış monoqrafiyanın nəticələrini təqdim edir. Tədqiqat zamanı Avropa və Şərq dillərində olan müxtəlif ensiklopedik və elmi mənbələrdən toplanmış məlumatlar sistemləşdirilib və dəqiqləşdirilib. Nadir sənədlərə və səs yazılarına xüsusi diqqət yetirilib. Araşdırmanın əsas məqsədi Şərq yəhudi melodiyaları kolleksiyası və müasir dini təcrübələr əsasında məqam sistemini yenidən bərpa etməkdir.

Məqalədə konkret məqamların dini musiqinin müxtəlif formalarına (istər sinaqoq daxilində, istərsə də kənarda) necə uyğunlaşdırıldığı barədə müşahidələr yer alır. Dua dövrlərinin müəyyən psixoloji və emosional vəziyyətlərlə əlaqələndirilməsinin minillik tarixi vurğulanır. Məsələn, tövbə dualarının təxminən doxsan faizi "Şur" məqamında ifa olunur. Bu məqam XVIII-XIX əsrlərdə "Hüseyni" və ya "Hüseyni-dügah" adlandırılaraq Davud peyğəmbərin adı ilə bağlanırdı. Bu əlaqə XVII-XVIII əsrlərə aid anonim fars musiqi traktatları (risalələri) vasitəsilə izlənilir. Bundan əlavə demək olar ki, bütün "kinnot"lar (mərsiyələr) "Bayatı-Şiraz" məqamında ifa edilir. Moskvada yaşayan Quba və Dərbənd əsilli Qafqaz yəhudilərinin müasir dini ayinlərinin öyrənilməsi göstərir ki, bu ənənələr ciddi şəkildə dəyişib və XX əsrin əvvəllərindəki qeydlərdən xeyli fərqlənir.

**Will SUMITS**
**(Orient-Institut Istanbul)**

## RESHAPING RESONANCES: INSTRUMENTAL INNOVATION ACROSS THE OTTOMAN EMPIRE, THE CAUCASUS, AND CENTRAL ASIA (1875–1925)

This paper examines innovations in musical instrument construction in the Ottoman Empire, the Caucasus, and Central Asia around the turn of the 20th century. It argues that organological change during this period reflects political, technological, and industrial transformations that reshaped these regions between 1875 and 1925.

Focusing on three types of innovation—modification of established instruments, adoption of instruments from neighboring traditions, and the invention of new instruments—the paper situates developments in relation to late imperial reform, urbanization, and emerging national discourses while highlighting the musical ingenuity of performing musicians. The addition of mandals to the

kanun in the Ottoman context, for example, responded to changing aesthetic demands and new ensemble settings. In the Caucasus, structural modifications to the Azerbaijani tar standardized tuning and expanded its sonic projection, aligning the instrument with urban concert life and emerging notions of a national mugham canon. Simultaneously, the circulation of instruments such as the ud across the Ottoman world reflected intensified transregional mobility and a more industrial approach to musical instrument fabrication. Newly invented instruments—such as the Ottoman Nev-Rebab and the Gülnihal—embodied experimental engagements with timbre, range, and modern craftsmanship, while modifications of traditional instruments in Central Asia mirrored emerging national music aesthetics shaped by new cultural policies of the time. By comparing these cases, the paper demonstrates how instrument making functioned as a site where musical ingenuity converged with technological modernity, imperial reform, and nationalist imagination, reshaping makam and mugham traditions across interconnected geographies.

**Uill SAMİTS**
**(İstanbul Şərq İnstitutu)**

## SƏSLƏRİN YENİDƏN FORMALAŞMASI: OSMANLI İMPERİYASI, QAFQAZ VƏ MƏRKƏZİ ASİYADA MUSİQİ ALƏTLƏRİNDƏ YENİLİKLƏR (1875–1925)

Məqalə XX əsrin əvvəllərində Osmanlı İmperiyası, Qafqaz və Mərkəzi Asiyada musiqi alətlərinin quruluşunda edilən yenilikləri araşdırılır. Müəllifin fikrincə, bu dövrdə alətlərdə baş verən dəyişikliklər 1875-1925-ci illər arasında həmin bölgələrdəki siyasi, texnoloji və sənaye transformasiyalarını nəticəsi kimi öz əksini tapmışdır.

Məqalədə üç növ yeniliyə diqqət yetirilir: mövcud alətlərin təkmilləşdirilməsi, qonşu xalqların alətlərinin mənimsənilməsi və tamamilə yeni alətlərin ixtirası. Bu inkişaf prosesləri İmperiya islahatları, şəhərləşmə və yeni yaranan milli ideologiyalarla əlaqələndirilir. Məsələn, Osmanlılarda qanun alətinə “mandal”ların (səs dəyişdirən kiçik qolların) əlavə edilməsi yeni ansambl quruluşlarına və estetik tələblərinə cavab verirdi. Qafqazda isə Azərbaycan tarının quruluşunda edilən dəyişikliklər onun səsini gücləndirərək köklənməsini standartlaşdırır. Bu da tarı şəhər konsert həyatına və milli muğam qaydalarına uyğunlaşdırır.

Eyni zamanda, ud kimi alətlərin Osmanlı coğrafiyasında geniş yayılması bölgələr arası hərəkətliliyi və alət istehsalına sənaye yanaşmasını göstərir. Yeni ixtira edilən alətlər (məsələn, “Nev-Rebab”-“Növ-Rübab” və "Gülnihal") müasir sənətkarlıqda sınanması və Mərkəzi Asiyadakı dəyişiklikləri dövrün yeni mədəniyyət siyasətinə uyğun milli musiqi estetikasının yaranmasını sübut edir. Məqalədə də məhz bu nümunələr müqayisə edilərək musiqi alətlərinin hazırlanmasında həm texnoloji müasirliyin, həm də milli kimlik axtarışlarının kəsişdiyi bir sahəyə çevrilməsindən danışılır.

**Alexandria SULTAN VON BRUSELDORFF**
**(Azerbaijan National Conservatory)**

## PRESERVING THE AZERBAIJANI MUGHAM VOCAL CANON IN THE 21ST CENTURY: INTEGRATING ORAL TRADITION WITH CONTEMPORARY VOCAL SCIENCE AND PEDAGOGY

Azerbaijani mugham singers (*khanende*) confront a pressing challenge: preserving an oral master–apprentice vocal tradition amid globalisation, transnational collaboration, and intensive contemporary performance demands. *Khanende* demonstrate exceptional melismatic agility, microtonal nuance, and timbral flexibility—skills that depend on acute auditory perception, respiratory control, vocal stamina, and precise neuromuscular coordination. Prolonged high-intensity performance risks vocal fatigue, degraded resonance, and distortion of melodic ornamentation, jeopardising the aesthetic and ethical tenets of the mugham canon. This study describes the development of an academic course specifically designed for Azerbaijani *khanende*, integrating traditional master–apprentice system with evidence-based voice science, vocal acoustics, physiology,

voice health, and pedagogy of the voice. While voice-science curricula exist in Western conservatoires for classical and operatic traditions, this initiative is the first to adapt these pedagogies explicitly for practical mugham performance training in Azerbaijan. Situated within an academic research programme at the Voice Study Centre (University of Essex) the module's development involves systematic review of historical and contemporary mugham literature, consultation with master *khanende*, observational analysis of performance practices, and iterative pilot testing to refine pedagogical content and instructional strategies. Intended for implementation as a taught academic course through the Voice Research Scientific Laboratory at the Azerbaijan National Conservatory, the course is maturing into a structured syllabus and supporting materials addressing vocal physiology, acoustic production, culturally informed technique, and holistic vocal health. As the first initiative of its kind in Azerbaijan, this course offers a holistic, culturally informed pedagogical model that bridges centuries-old oral tradition of vocal mugham with contemporary voice-science insights, fostering sustainable mastery of the *khanende* art form.

**Aleksandriya SULTAN VON BRUSELDORF**
**(Azərbaycan Milli Konservatoriyası)**

## XXI ƏSRDƏ AZƏRBAYCAN MUĞAM-VOKAL KANONUNUN QORUNMASI: ŞİFAHİ ƏNƏNƏNİN MÜASİR VOKAL ELMİ VƏ PEDAQOGİKA İLƏ VƏHDƏTİ

Azərbaycan xanəndələri bu gün vacib bir sınaqla üz-üzədirlər: qloballaşma və intensiv çıxışların artdığı bir dövrdə ustad-şəyird ənənəsini necə qoruyub saxlanılmalı? Xanəndəlik sənəti yüksək çeviklik, mikrotonal incəlik və güclü səs dözümlülüyü tələb edir. Uzunmüddətli və ağır çıxışlar səs yorğunluğuna və muğamın estetik gözəlliyinin itməsinə səbəb ola bilər.

Bu tədqiqat Azərbaycan xanəndələri üçün xüsusi olaraq hazırlanmış akademik kursun yaradılmasından bəhs edir. Bu kurs ənənəvi ustad-şəyird sistemini müasir səs elmi, vokal akustikası, fiziologiya və səs sağlamlığı ilə birləşdirir. Qərb Konservatoriyalarında opera üçün oxşar proqramlar olsa da, bu təşəbbüs Azərbaycanda muğam ifaçılığına uyğunlaşdırılmış ilk proqramdır.

Esses Universitetinin "Səs Araşdırmaları Mərkəzi"ndə aparılan bu tədqiqat çərçivəsində tarixi və müasir muğam ədəbiyyatı nəzərdən keçirilir, ustad xanəndələrlə məsləhətləşmələr aparılır və ifa tərzi analiz edilir. Azərbaycan Milli Konservatoriyasının nəzdindəki "Səs Araşdırmaları Elmi Laboratoriyası"nda tədris edilməsi nəzərdə tutulan bu kurs vokal fiziologiyası, səs istehsalı və səs sağlamlığı kimi mövzuları əhatə edir. Bu layihə çoxəsrlik şifahi muğam ənənəsini müasir elmi biliklərlə birləşdirərək xanəndəlik sənətinin gələcək nəsillərə sağlam şəkildə ötürülməsi üçün yeni bir model təklif edir.

**Beyimkhanim VALIYEVA**
**(Azerbaijan National Conservatory)**

## INTERPRETATION OF MUGHAM AND FREEDOM OF IMPROVISATION IN MODERN PERFORMANCE: BOUNDARIES BETWEEN TRADITION AND INNOVATION

Mugham art is one of the highest manifestations of Azerbaijani musical culture and remains in continuous flux, inspired by both scientific and spiritual development. In modern times, mugham performance demands not only preservation of the tradition, but also innovation. This paper analyzes the nature of mugham's creative boundaries; relying on perspectives from pedagogy and performance practice, we explore the balance between tradition and innovation. The concept of "interpretation" in modern performance combines the stable melodic structures of mugham with individual emotional expression. The performer's freedom of improvisation is closely related to his or her inner world of feelings, spiritual state and aesthetic taste. However, the freedom of improvisation is not only freedom, but also responsibility - because each new improvisation, while remaining faithful to the spirit of mugham, also carries the mission of modernizing it. This study shows that the freedom of improvisation is the main essence of mugham, but this freedom is not only musical freedom, but also a moral responsibility. This article also discusses the performance styles of creative singers and how they approach mugham. In conclusion, it is noted that the survival and development of mugham art depends on the performer's ability to combine deep respect for tradition with the search for

innovation.

**Bəyimxanım VƏLİYEVA**
**(Azərbaycan Milli Konservatoriyası)**

## MÜASİR İFAÇILIQDA MUĞAMIN TƏFSİRİ VƏ İMPROVİZASİYA AZADLIĞI: ƏNƏNƏ VƏ YENİLİK ARASINDA YARADICILIQ SƏRHƏDLƏRİ

Muğam sənəti Azərbaycan musiqi mədəniyyətinin ən yüksək təzahürlərindən biridir və həm elmi, həm də mənəvi dəyərləri ilə daim yenilənir. Müasir dövrdə muğam ifaçılığı yalnız ənənəni qorumaqla kifayətlənmir, həm də yeni ifadə formaları axtarır. Məqalədə muğam ifaçısının yaradıcılıq sərhədlərini – yəni ənənə və yenilik arasında tarazlığı – pedaqoji və ifaçılıq baxımından müqayisəsi təhlil edilir. Müasir ifaçılıqda "təfsir" anlayışı muğamın sabit melodik strukturlarını fərdi emosional ifadə ilə birləşdirir. İfaçının improvizasiya azadlığı isə onun daxili hiss dünyası, mənəvi hazırlığı və estetik zövqü ilə sıx bağlıdır. Bununla belə, improvizasiya azadlığı yalnız sərbəstlik deyil, həm də məsuliyyətdir – çünki, hər yeni improvizasiya muğamın ruhuna sadiq qalmaqla yanaşı, onu müasirləşdirmə missiyasını da daşıyır. Araşdırma göstərir ki, improvizasiya azadlığı muğamın əsas mahiyyətidir, lakin bu azadlıq yalnız musiqi sərbəstliyi deyil, həm də mənəvi məsuliyyətdir. Məqalədə həmçinin yaradıcı xanəndələrin ifa üslubları, onların muğamlara yaradıcı yanaşması da müzakirə olunur. Nəticə olaraq qeyd olunur ki, muğam sənətinin yaşaması və inkişafı ifaçının ənənəyə dərin hörmətini yenilik axtarışları ilə birləşdirmə bacarığından asılıdır. Burada ifaçı təcrübəsinə əsaslanaraq muğamın səhnə təqdimatında yaradıcılıq sərhədlərini necə qoruduğunu və bu sərhədlərin zamanla necə dəyişdiyi təhlil olunur.

**Sashar ZARIF**
**(York University)**

## DANCING MUGHAM: EMBODIED METHODOLOGIES FOR UNDERSTANDING AZERBAIJANI MUGHAM THROUGH MOVEMENT, MEMORY, AND MODAL SENSIBILITY

This paper examines Dancing Mugham, an embodied research framework developed by artist–scholar Sashar Zarif within his broader Living Stories methodology, as an innovative approach to understanding Azerbaijani mugham. While mugham is conventionally analyzed through sound, poetry, and modal structure, this project proposes embodiment as an additional analytical lens through which the emotional, cognitive, and affective dimensions of mugham can be accessed. Rather than deriving movement from musicians themselves, Dancing Mugham foregrounds the inherent corporeal processes—breath, attentional focus, expressive posture—that already underlie modal interpretation, positioning the body as a site of perceptual and analytical insight. Based on multi-sited workshops and collaborations in Azerbaijan, Uzbekistan, Iran, Morocco, and the Canadian diaspora, the project demonstrates how embodied engagement provides participants with alternative ways of perceiving modal contours, rhythmic cycles, and affective transitions that exceed auditory perception alone. Workshop observations suggest that kinaesthetic forms of attention enable musicians and audiences alike to engage more deeply with mugham's internal logics, revealing relationships between poetic imagery, modal progression, and embodied sensibility. Here, dance operates not as accompaniment or illustration, but as a methodological tool that renders aspects of mugham's experiential depth intellectually and perceptually available. By situating Dancing Mugham as a transnational, practice-based mode of inquiry, the paper argues that embodied methodologies open new possibilities for dialogue across related modal traditions without obscuring their distinct histories. It contributes to emerging conversations on aesthetic experience, intermodal translation, and the role of embodied knowledge in contemporary mugham and maqam scholarship.

**Saşar ZARİF**

**(York Universiteti)**

# MUĞAMI RƏQS ETMƏK: HƏRƏKƏT, YADDAŞ VƏ MƏQAM HİSSİ VASİTƏSİLƏ AZƏRBAYCAN MUĞAMINI ANLAMAQ ÜÇÜN FİZİKİ METODOLOGİYALAR

Məqalədə sənətçi və tədqiqatçı Saşar Zarif tərəfindən hazırlanmış “Muğamı rəqs etmək” (“Dancing Mugham”) layihəsindən bəhs edilir. Müəllif bu layihədə Azərbaycan muğamını anlamaq üçün fərqli və yenilikçi bir yanaşma təklif edir. Adətən muğam səs, poeziya və məqam quruluşu vasitəsilə təhlil olunsa da, bu layihə muğamın emosional və idraki tərəflərini hiss etmək üçün insanın öz bədənini bir analiz vasitəsi kimi istifadə etməsini təklif edir.

“Muğamı rəqs etmək” layihəsi hərəkəti birbaşa musiqiçilərdən götürmür, əksinə, muğamın əsasında dayanan daxili fiziki prosesləri — nəfəs, diqqətin cəmlənməsi və ifadəli duruşu ön plana çıxarır. Azərbaycan, Özbəkistan, İran, Mərakeş və Kanadada keçirilən seminarlar (workshops) göstərir ki, fiziki hərəkətlərlə muğama qoşulmaq iştirakçılara ritmik dövrləri və muğamdakı keçidləri təkcə qulaqla deyil, həm də bədənlə hiss etməyə imkan verir.

Müşahidələr göstərir ki, bu cür hərəkət diqqəti həm musiqiçilərin, həm də dinləyicilərin muğamın daxili məntiqini daha dərindən anlamasına şərait yaradır; şeir obrazları ilə məqamın inkişafı arasındakı əlaqəni üzə çıxarır. Burada rəqs sadəcə musiqini müşayiət edən bir bəzək deyil, muğamın dərinliyini başa düşmək üçün bir elmi alət kimi çıxış edir. Məqalədə qeyd olunur ki, bu cür fiziki metodologiyalar fərqli məqam ənənələri arasında yeni dialoq imkanları yaradır.

**INTERNATIONAL SYMPOSIUM "AZERBAIJANI MUGHAM ACROSS BORDERS"**
**Participants: biographies (BOTH English and Azerbaijan) and email addresses**

**"SƏRHƏDLƏRI AŞAN AZƏRBAYCAN MUĞAMI" BEYNƏLXALQ SİMPOZİUMU**
**İştirakçıların tərcümeyi-halı (həm ingilis, həm də Azərbaycan dillərində) və 24lectron poçt ünvanları**

**Sanubar Baghirova**
**(Azerbaijan National Academy of Sciences)**
**sanubar.baghirova@gmail.com**

Sanubar Baghirova is a well-known musicologist, PhD in Art History, and an Honored Art Worker of Azerbaijan. She is a leading researcher at the Institute of Architecture and Art of the Azerbaijan National Academy of Sciences (ANAS).

Her academic work focuses on the history, theory, and aesthetics of Azerbaijani mugham. She is an expert in both the classical traditions of mugham and its modern development. A key part of her research is the concept of "ta`sir" (the emotional impact of music on the listener).

She has participated in many international conferences and has represented Azerbaijani music culture at scientific forums and symposiums worldwide (such as "The World of Mugham" in Baku). The author of numerous books and articles, Sanubar Baghirova also plays an important role in developing music science and training young musicologists in Azerbaijan.

Sanubar Baghirova is the author of several fundamental books and more than 70 academic articles on the research of Azerbaijani mugham and ashig arts.

Her main books include:

"Azerbaijani Mugham: Research, Articles, Reports" (in 2 volumes):

Volume I (2007) – Published in Russian and English.

Volume II (2007) – Published in Azerbaijani; dedicated to the structure, philosophy, and historical development of mugham.

"Azerbaijani Music and Musicians" (2011): This collection was published in Russian and covers various academic articles.

In addition, she is the author of the UNESCO nomination files (for Azerbaijani mugham, ashig art, and tar performance), which have played a crucial role in promoting Azerbaijan's intangible cultural heritage globally. Under her leadership, a comprehensive anthology (CDs) of traditional Azerbaijani music, particularly ashig art, and a documentary film titled "Ancient Mugham and Ashig Arts in the 21st Century" (2013) were produced.

**Sənubər Bağırova**
**(Azərbaycan Milli Elmlər Akademiyası)**
**sanubar.baghirova@gmail.com**

Sənubər Bağırova — tanınmış musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru və Azərbaycanın Əməkdar incəsənət xadimidir. O, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisidir.

Sənubər xanımın elmi yaradıcılığı əsasən Azərbaycan muğam sənətinin tarixi, nəzəriyyəsi və estetikası ilə bağlıdır. O, muğamın həm klassik ənənələrini, həm də müasir dövrdəki inkişaf meyllərini dərindən araşdıran mütəxəssislərdən biridir. Onun tədqiqatlarında musiqinin dinləyiciyə emosional təsiri olan "təsir" konsepsiyası xüsusi yer tutur.

O, çoxsaylı beynəlxalq konfransların iştirakçısıdır, Azərbaycan musiqi mədəniyyətini müxtəlif xarici ölkələrdə keçirilən elmi forumlarda və simpoziumlarda (məsələn, Bakıda keçirilən "Muğam Dünyası" simpoziumları) yüksək səviyyədə təmsil etmişdir. Bir çox kitab və elmi məqalənin müəllifi olan Sənubər Bağırova, eyni zamanda Azərbaycanda musiqi elminin inkişafında və gənc musiqişünasların yetişməsində mühüm rol oynayır.

Sənubər Bağırova Azərbaycan muğam və aşıq sənətinin tədqiqi sahəsində bir neçə fundamental kitabın və 70-dən çox elmi məqalənin müəllifidir.

Onun əsas kitabları bunlardır:

"Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr" (2 cilddə):

I cild (2007) – Rus və ingilis dillərində nəşr olunub.

II cild (2007) – Azərbaycan dilində nəşr olunub və muğamın strukturu, fəlsəfəsi və tarixi inkişafına həsr edilib.

"Azərbaycan musiqisi və musiqiçiləri" (2011): Bu toplu rus dilində işıq üzü görmüşdür və müxtəlif elmi məqalələri əhatə edir.

Bundan əlavə, o, Azərbaycanın qeyri-maddi mədəni irsinin dünyada tanıdılmasında mühüm rolu olan YUNESKO nominasiya fayllarının (Azərbaycan muğamı, aşıq sənəti və tar ifaçılığı üzrə) müəllifidir. Həmçinin onun rəhbərliyi ilə Azərbaycanın ənənəvi musiqisinə, xüsusilə aşıq sənətinə dair geniş antologiya (CD-lər) və "XXI əsrdə qədim muğam və aşıq sənətləri" adlı sənədli film (2013) hazırlanmışdır.

**Lala Huseynova**
**(Azerbaijan National Conservatory)**
**lalahuseynova1962@gmail.com**

Huseynova Lala Shirmammad is a musicologist with a PhD in art history, and she holds the title of Honored Art Worker of Azerbaijan. She is also the Vice-Rector for Science, Innovation, and Creative Affairs at the Azerbaijan National Conservatory and Professor in the Department of Ethnomusicology. She graduated from the Faculty of History and Theory at the U. Hajibeyov Azerbaijan State Conservatory (now the U. Hajibeyli Baku Music Academy). Over the years, she served as the Executive Secretary and Secretary of the Union of Composers of Azerbaijan (2002-2015) and taught at the Baku Music Academy. Since 2015, she has been Vice-Rector at the Azerbaijan National Conservatory and Editor-in-Chief of the Conservatory journal. She is, moreover, a member of ICTMD and was elected Deputy Chair of the Music and Dance of the Turkic World Study Group in 2024. Lala is the author of 3 books, and more than 70 academic articles in local and international journals and collections. Her work is focused on the history of Azerbaijani music, traditional genres, as well as the cross-genre relations of ethnic music of the Turkic peoples. She has been actively participating in international scientific and practical conferences, music forums and festivals held in the cities of Tashkent, Kyiv, Moscow, St. Petersburg, Toronto, Tbilisi, Kazan, Chisinau, Almaty, Dushanbe, Samarkand, Astana. These include the International Symposium "The World of Mugham" within the framework of the International Mugham Festival in Baku (2013, 2018, 2023), at conferences within the framework of the International Festival "Sharg Taronalari" in Samarkand (2007, 2013, 2015, 2024), and the International Symposium of Maqom in Uzbekistan (2018, 2024). For many years, she has also hosted music programs on Azerbaijani television.

**Lalə Hüseynova**
**(Azərbaycan Milli Konservatoriyası)**
**lalahuseynova1962@gmail.com**

Lalə Şirməmməd qızı Hüseynova — musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru və Azərbaycanın Əməkdar incəsənət xadimidir. O, Azərbaycan Milli Konservatoriyasının elmi işlər, innovasiya və yaradıcılıq məsələləri üzrə prorektoru, həmçinin "Etnomusiqişünaslıq" kafedrasının professorudur.

Lalə Hüseynova Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) Tarix-nəzəriyyə fakültəsini bitirmişdir. O, 2002–2015-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi və katibi vəzifələrində çalışmış, Bakı Musiqi Akademiyasında dərs demişdir. 2015-ci ildən Azərbaycan Milli Konservatoriyasının prorektoru və "Konservatoriya" jurnalının baş redaktorudur.

O, həmçinin beynəlxalq ICTMD təşkilatının üzvüdür və 2024-cü ildə "Türk Dünyasının Musiqisi və Rəqsi" tədqiqat qrupunun sədr müavini seçilmişdir. 3 kitabın və yerli/beynəlxalq jurnallarda dərc olunmuş 70-dən çox elmi məqalənin müəllifidir. Tədqiqatları əsasən Azərbaycan musiqi tarixi, ənənəvi janrlar və türk xalqlarının musiqi əlaqələrinə həsr olunub.

Lalə Hüseynova Daşkənd, Kiyev, Moskva, Toronto, Tbilisi, Səmərqənd və Astana kimi bir çox şəhərlərdə keçirilən beynəlxalq konfrans və festivallarda fəal iştirak etmişdir. Buraya Bakıdakı "Muğam Dünyası", Səmərqənddəki "Şərq Tərənələri" və Özbəkistandakı Beynəlxalq “Maqom” Simpoziumları daxildir. O, həmçinin uzun illər Azərbaycan televiziyasında musiqi proqramlarının aparıcısı kimi fəaliyyət göstərmişdir.

**Fakhraddin Bakhshaliyev**
**(Azerbaijani National Conservatory)**
**salimhak@mail.ru**

Fakhraddin Elshad Bakhshaliyev, was born on September 10, 1969, in the village of Kuku, Shahbuz district of the Nakhchivan Autonomous Republic. In 1984, he completed the 8th grade at Secondary School No. 5 named after H. Javid in the city of Nakhchivan. In the same year, he was admitted to the tar class of the Nakhchivan Music College named after U. Hajibeyli, from which he graduated with honors in 1988. In 1990, he entered the tar department of the Faculty of Folk Instruments at the Baku Music Academy named after U. Hajibeyli, graduating in 1996. In 2000, he was appointed as a research fellow at the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences (ANAS). In 2010, he successfully defended his PhD dissertation entitled *"Sufi Traditions and Ashiq Alasgar"*. Since 2014, he has been working as a lecturer at the Azerbaijan National Conservatory. He holds a PhD in Philology and the academic title of Associate Professor. He is author of numerous scientific and journalistic articles, as well as the following books:

**Books**

1. *Ismi-Asam* (Collection of poems)
2. *Gnosis and Sufism in the System of National Memory* (Monograph)
3. *The Ozan-Ashiq Art in Historical and Philosophical Context* (Textbook)
4. *Si Murgh* (Musical notation album for saz and vocal)
5. *Rubai Divan* (Collection of poems)
6. *Treatise of Love* (Philosophical tractate)
7. *Utopian Realism* (Collection of philosophical and journalistic essays)
8. *Divan* (Collection of poems in aruz meter)
9. *From Dede Gorgud to Dede Alasgar* (Monograph)

**Fəxrəddin Bəxşəliyev**
**(Azerbaycan Milli Konservatoriyası)**
salimhak@mail.ru

Fəxrəddin Elşad oğlu Baxşəliyev 1969-cu il sentyabrın 10-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kükü kəndində anadan olub. 1984-cü ildə Naxçıvan şəhərində H.Cavid adına 5 saylı orta məktəbdə 8-ci sinfi bitirərək həmin il Ü.Hacıbəyli adına Naxçıvan Musiqi Texnikumunun tar sinfinə qəbul olmuş və 1988-ci ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir. 1990-cı ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının xalq çalğı alətləri fakültəsinin tar şöbəsinə daxil olmuş, 1996-cı ildə oranı bitirmişdir. 2000-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutuna elmi işçi vəzifəsinə təyin olunmuşdur. 2010-cu ildə "Təsəvvüf ənənələri və Aşıq Ələsgər" adlı namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. 2014-cü ildən bu günə qədər Azərbaycan Milli Konservatoriyasında müəllim kimi çalışır. F.Bəxşəliyev Filologiya elmləri namizədi və dosentdir. O, çoxsaylı elmi və publisistik məqalələrin, həmçinin aşağıdakı kitabların müəllifidir:

**Kitablar**

1. "İsmi-Əsəm" (Şeirlər toplusu)
2. "Milli yaddaş sistemində irfan və sufizm" (monoqrafiya)
3. "Ozan-Aşıq sənəti tarixi-fəlsəfi kontekstdə" (Dərslik)
4. "Si Murgh" (saz və vokal üçün not albomu)
5. "Rübai divan" (Şeirlər toplusu)
6. "Məhəbbət traktatı" (Fəlsəfi traktat)
7. "Utopik realism" (Fəlsəfi və publisistik esselər toplusu)
8. "Divan" (Əruz sayğacında şeirlər toplusu)
9. "Dədə Qorquddan Dədə Ələsgərə" (Monoqrafiya)

**Alexandra Balandina**
**(Ionian University)**
abalandina@ionio.gr

Prof. Dr. Alexandra Balandina is an Associate Professor of Ethnomusicology at the Music Department, Ionian University, Greece (https://music.ionio.gr/en/department/staff/674-balandina/). She graduated from the Department of Social Anthropology at Panteion University of Athens, Greece, and earned her MMUS and PhD in Ethnomusicology from the Music Department at Goldsmiths University, London, UK under the supervision of Prof. John Baily. During her master's and doctoral studies, she conducted long-term ethnographic fieldwork in Tehran, Iran, investigating the culture of tombak playing in modern Iran. She

deepened her understanding of the instrument by learning to perform on the tombak (goblet-shaped drum) with the eminent Bahman Rajabi and several younger-generation tombak players. Her primary research interests include music and culture in the Persian speaking world, performance theory and practice, cultural organology, ethnography and embodiment, music and politics. She is currently co-editing a book on Music in the Persian-Speaking World in collaboration with colleagues from Martin Luther University in Halle, Germany, and Logos Verlag Berlin. Born in Tashkent, Uzbekistan, she is fluent in Russian, English, Farsi, Greek, Macedonian, and Serbian.

**Aleksandra Balandina**
**(İon Universiteti)**
**abalandina@ionio.gr**

Aleksandra Balandina Yunanıstanın İon Universitetinin Musiqi Departamentinin Etnomusiqiologiya kafedrasının dosentidir. O, Yunanıstanın Panteion Universitetinin sosial antropologiya fakültəsini bitirmiş və professor Con Beylinin rəhbərliyi altında London, Böyük Britaniyanın "Qoldsmis" (Goldsmiths) Universitetinin Musiqi şöbəsində MMUS və etnomusiqişünaslıq üzrə fəlsəfə doktoru dərəcəsi almışdır. Magistratura və doktorantura təhsili zamanı o, İranın Tehran şəhərində uzunmüddətli etnoqrafik sahə işləri aparmış, müasir İranda dümbək ifaçılığı mədəniyyətini tədqiq etmişdir. O, görkəmli Bəhmən Rəcəbi və bir neçə gənc dümbək ifaçıları ilə dümbəkdə ifa etməyi öyrənərək alət haqqında bilgilərini genişləndirmişdir. Onun əsas tədqiqat maraqlarına farsdilli dünyada musiqi və mədəniyyət, performans nəzəriyyəsi və təcrübəsi, mədəni orqanologiya, etnoqrafiya və təcəssüm, musiqi və siyasət daxildir. O, hal-hazırda Almaniyanın Halle şəhərindəki Martin Lüter Universiteti və Logos Verlag Berlin nəşriyyatının həmkarları ilə müştərək Fars musiqisinə dair yazdığı kitabın redaktorluğu ilə məşğuldur. Aleksandra Balandina rus, ingilis, fars, yunan, makedon və serb dillərini mükəmməl bilir. (https://music.ionio.gr/en/department/staff/674-balandina/).

**Azer Celebiani**
**(Azerbaijan National Conservatory)**
**azar.chalabiyani@gmail.com**

Azar Chalabiani was born in Tabriz, Iran, and completed her bachelor's degree in National Vocal performance at the Azerbaijan National Conservatory between 2019 and 2023. She then continued her studies at the same institution, earning her master's degree in National Vocal performance from 2023 to 2025. Currently, she is pursuing a second degree in Musicology, further developing her academic and artistic background. Her research is conducted under the supervision of Gültekin Shamilli, Doctor of Art Studies and a leading researcher at the State Institute for Art Studies of the Ministry of Culture of the Russian Federation. Her academic interests focus on traditional Azerbaijani music, particularly mugham, as well as the study and research of musical sources. Through her studies and research, Azer aims to contribute to the preservation and deeper scholarly understanding of this musical heritage.

**Azər Çelebiani**
**(Azərbaycan Milli Konservatoriyası)**
**azar.chalabiyani@gmail.com**

Azər Çələbiani İranın Təbriz şəhərində doğulub. O, 2019-2023-cü illərdə Azərbaycan Milli Konservatoriyasında Milli Vokal ifaçılığı üzrə bakalavr dərəcəsini başa vurub. Daha sonra həmin institutda təhsilini davam etdirərək 2023-2025-ci illərdə Milli Vokal ifaçılığı üzrə magistr dərəcəsi qazanıb. Hazırda o, musiqişünaslıq və sənətşünaslıq üzrə ikinci təhsilini davam etdirir. Azər Çələbianinin tədqiqatları Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin Dövlət Sənətşünaslıq İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq doktoru Gültəkin Şamillinin rəhbərliyi altında aparılır. Onun akademik maraqları ənənəvi Azərbaycan musiqisinə, xüsusilə muğama, o cümlədən musiqi mənbələrinin tədqiqinə yönəlib. Azər Çələbianinin tədqiqatları bu musiqi irsinin qorunub saxlanmasına və daha dərindən elmin dərk edilməsinə töhfə vermək məqsədi daşıyır.

**Polina Dessiatnitchenko**
**(SOAS University of London)**
**pd24@soas.ac.uk**

